

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 31 (721) ■ 13 avqust 2014 www.vergiler.az Qiyməti: 40 qəp.

# Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Ağdamdakı «N» saylı hərbi hissədə olub

Ali Baş Komandan İlham Əliyev komanda müşahidə məntəqəsindən düşmənin mövqelərini izləyib.

Sonra Prezident döyüş tapşırığını yerinə yetirərkən xüsusilə fərqlənmiş bir qrup hərbçiyə qiymətli hədiyyələr təqdim edib.

Dövlət başçısı hərbçilərlə görüşüb və döyüşdə fərqlənmiş hərbi qulluqçular qarşısında çıxış edib.



### Dövlət başçısı İlham Əliyevin çıxışı

- Bu gün təmas xəttində vəziyyətlə tanış oluram. Müdafiə Nazirliyi müntəzəm olaraq operativ məlumat verir. Vəziyyət tam nəzarət altındadır. Bizim mövqelərimiz möhkəmdir, güclüdür və təmas xəttində Azərbaycan ordusu tam üstünlüyü əldə edib.

Azərbaycan ordusunun peşəkarlığı, döyüş qabiliyyəti artır, Azərbaycan əsgər, gizir və zabitləri vətənə ləyaqətlə xidmət edirlər, öz vətəninə sadiqdirlər. Bizim bütün hərbi hissələrimizdə, xüsusilə ön cəbhədə yerləşən hərbi hissələrdə ruh yüksəkliyi var və Azərbaycan əsgərinin vətənpərvərlik hissləri çox yüksəkdir, möhkəmdir. Biz bundan sonra da öz döyüş potensialımızı artıracağıq. Hazırda Azərbaycan ordusunun maddi-texniki təchizatı ən yüksək səviyyədədir. Son vaxtlar əldə etdiyimiz silah, texnika deməyə əsas verir ki, biz istənilən vəzifəni icra edə bilərik.

Son vaxtlar həm Azərbaycanda müasir silah və texnika istehsal olunur, eyni zamanda, xarici mənbələrdən aldığımız avadanlıq, texnika, silah-sursat ən müasir standartlara cavab verir. Hava hücumuna qarşı ən müasir qurğular əldə edilibdir. Ordumuzda ən güclü artilleriya qurğuları vardır. Böyük dəqiqliyə və çox böyük dağıdıcı qüvvəyə malik olan raket sistemləri, döyüş və nəqliyyat helikopterləri, döyüş təyyarələri, zirehli texnika, tanklar - bütün bunlar bu gün Azərbaycan ordusunun potensialını təşkil edən amillərdir. Bu gün Azərbaycan ordusu Dağlıq Qarabağdakı istənilən obyekti məhv edə bilər. Bunu biz də bilirik, Azərbaycan xalqı da, düşmən də bilməlidir. Bu gün ancaq Azərbaycan dövlətinin siyasəti sayəsində bölgədə sabitlik, hələ ki, təmin edilir. Azərbaycan sabitləşdirici ölkədir. Biz bu gün öz imkanlarımızı artıraraq daha da güclü orduya malik oluruq və bu ordu istənilən vaxtda, istənilən vəzifəni icra edə bilər.

Bu gün təmas xəttində olarkən son günlər ərzində baş vermiş hadisələri də yada salırıq. Düşmən, erməni işğalçı qüvvələri bir həftə bundan əvvəl qorxaqcasına, namərdcəsinə gecə vaxtı bizim mövqelərimizə hücum etmişlər. Biz itki vermişik, əsgərlərimiz şəhid olmuşlar. Allah bütün şəhidlərə rəhmət eləsin, onların ailələrinə, yaxınlarına səbir versin. Ancaq, eyni zamanda, düşmən layiqli cavab aldı. Həmişə olduğu kimi, erməni tərəfi öz itkilərini gizlədir. Ancaq biz bilirik ki, onlarla işğalçı məhv edilmişdir və bu əməliyyatlarda xüsusi rəşadət, cəsarət, peşəkarlıq göstərən əsgər, gizir və zabitlər bu gün bu masa arxasında əyləşmişlər. Mən onları təltif etmişəm. Göstərdiyiniz cəsarətə görə, peşəkarlığa görə sizə Azərbaycan xalqı adından öz minnətdarlığımı bildirmək istəyirəm və əminəm ki, bundan sonra da bütün döyüş tapşırıqlarını ləyaqətlə icra edəcəksiniz.

Bu gün düşmən panikadadır, isterikadadır. Biz bunu bilirik. Bizim kifayət qədər imkanlarımız var ki, qarşı tərəfdə nələr baş verdiyini biləк. Biz tam şəkildə hərbi və mənəvi üstünlüyü əldə etmişik. Biz öz torpağımızdayıq. Bir həftə bundan əvvəl həlak olmuş şəhidlərimiz öz torpağında şəhid olmuşlar. Sual olunur: erməni əsgərinin - işğalçı qüvvələrin əsgərinin Ağdam ərazisində nə işi var? Bu gün Ermənistanın faşist rəhbərliyi, hərbi xunta öz ölkəsini uçuruma aparır. Onlar bizim torpaqlarımızı işğal ediblər, eyni zamanda, bütün Ermənistanı işğal ediblər. Erməni xalqı kriminal, korrupsioner rəhbərlikdən öz canını qurtarmalıdır. Əks təqdirdə Ermənistanı böyük fəlakətlər gözləyir. Əgər Ermənistan faşist dövləti öz çirkin əməllərindən əl çəkməsə, erməni dövlətinin mövcudluğu sual altına düşə bilər.

Bu gün biz yaxşı bilirik ki, Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaranıbdır. İrəvan xanlığı, Zəngəzur, Göyçə mahalı bizim tarixi torpağımızdır. Biz azərbaycanlılar o torpaqlara qayıtmalıyıq və qayıdacağıq. Biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Həmişə belə olub, bu gün də belədir, sabah da belə olacaq. Sadəcə olaraq, 1990-cı illərin əvvəllərində baş vermiş hadisələr nəticəsində müvəqqəti olaraq torpaqlarımız işğal altına düşmüşdür. Ancaq biz öz suverenliyimizi bərpa edəcəyik. Bütün işğal edilmiş torpaqlarda, o cümlədən Şuşada, Xankəndidə Azərbaycan bayrağı qaldırılacaqdır. Bu, bizim məqsədimizdir. Bu məqsədə doğru gedirik və biz bu məqsədə çatmaq üçün daha da güclü ordu yaratmalıyıq.

Bu gün ölkəmizin iqtisadi, siyasi potensialı Ermənistandan qat-qat artıqdır, üstündür. Son illər ordu quruculuğu sahəsində görülən işlər nəticəsində biz hərbi üstünlüyü də əldə etmişik və öz potensialımızı getdikcə daha da artıracağıq. Münaqişənin həlli yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində mümkündür. Dağlıq Qarabağ Azərbaycan ərazisidir. Tarixi, əzəli Azərbaycan torpağıdır. Beynəlxalq hüquq normaları bizim mövqeyimizi dəstəkləyir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycan ərazisi kimi tanıyır. Biz heç vaxt Azərbaycan torpağında ikinci qondarma erməni dövlətinin yaradılmasına imkan verməyəcəyik, öz ərazi bütövlüyümüzü bərpa edəcəyik: ya sülh yolu ilə, ya hərbi yolla. Biz hər iki varianta hazırıq. Son həftə ərzində və ondan əvvəlki dövrdə təmas xəttində müşahidə olunan mənzərə onu deməyə əsas verir ki, biz istənilən varianta hazırıq. Necə ki, siyasi və iqtisadi meydanda ermənilərə qalib gəlmişik, döyüş meydanında da onlara qalib gəlməyə qadirik. Biz güclü hərbi potensiala malikik. Artıq bu, müxtəlif vaxtlarda nümayiş etdirilib. Hərbi təlimlərdə və paradlarda bizim texnikamız nümayiş etdirilir. Amma bizim ən böyük gücümüz əsgərlərimizin cəsarəti, vətənpərvərliyidir. Bu gün Azərbaycanda elə gözəl gənc nəsil yetişib ki, onların hamısı Ali Baş Komandanın əmrini gözləyir. Son hadisələr də bunu göstərir. Hətta hərb işindən kənarda olan insanlar da öz fikirlərini, istəklərini bildirirlər, könüllü olaraq cəbhə bölgəsinə getmək istəyirlər. Bu, məni çox sevindirir və onu göstərir ki, Azərbaycanda vətənpərvərlik ruhu yüksəkdir. Mənəvi üstünlük bizim tərəfimizdədir. Ermənistandan isə son hadisələrdən sonra əhali kütləvi köçə başlamışdır. Onsuz da son illər ərzində Ermənistanı orta hesabla ildə 70-80 min vətəndaş həmişəlik tərk edirdi. Ancaq son günlər ərzində bu köç daha da güclü olmuşdur. Yəni onlar bizdən qorxurlar, panikadadırlar. Özləri etiraf edirlər ki, xarici yardım olmadan Ermənistanın müstəqilliyini saxlaya bilməzlər. Açıq şəkildə etiraf edirlər ki, xarici güvvələrə güvənirlər. Biz isə öz xalqımıza, öz gücümüzə güvənirik. Biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik və etməliyik. Azərbaycan xalqı öz ordusunu sevir, ona inanır, güvənir. Siz ordumuzun inkişafında böyük xidmətlər göstərmisiniz. Bizim, əlbəttə, bütün hərbi hissələrimizdə xidmət edən əsgər, gizir və zabitlər çox böyük qiymətə layiqdirlər. Ancaq sizin əməliyyatlarınızın, xüsusi təyinatlı bölmələrdə xidmət edən əsgər və zabitlərimizin xüsusi xidməti vardır. Siz hər an öz həyatınızı risk altına salırsınız, böyük qəhrəmanlıq göstərirsiniz. Mən bunu yüksək qiymətləndirirəm və istəyirəm Azərbaycan xalqı da bilsin ki, bizim necə gözəl döyüşçülərimiz, qəhrəmanlarımız var.

Sizin gələcək fəaliyyətiniz uğurlu olacaqdır. Bizim işimiz haqq işidir. Biz öz torpağımızda yaşayırıq. Bura Azərbaycan torpağıdır. Buradan bir neçə kilometr məsafədə yerləşən Ağdam şəhəri də Azərbaycan torpağıdır, Xankəndi də, Şuşa da, bütün digər işğal edilmiş torpaqlar da. Ağdam şəhərini erməni quldurları, vəhşiləri yerlə yeksan ediblər. Buradan Ağdam şəhərinin qalıqları açıq-aydın görünür. İki binadan başqa bütün binalar dağıdılıb. Biz Ağdam şəhərini bərpa edəcəyik. İşğal edilmiş, dağılmış bütün şəhərləri bərpa edəcəyik. Biz o torpaqlara qayıdacağıq, biz bu fikirlə yaşayırıq və yaşayacağıq. Münaqişə öz həllini tapmayana qədər daim öz prinsipial mövqeyimizi nümayiş etdirəcəyik və təmas xəttində üstünlük daim bizdə olacaqdır.

Göstərdiyiniz qəhrəmanlığa görə sizi bir daha təbrik edirəm, sizə öz minnətdarlığımı bildirmək istəyirəm.

Mən hərbi hissələrdə tez-tez oluram. Təmas xəttində də, bu bölgədə də, digər mövqelərdə də olmuşam. Bir daha demək istəyirəm ki, mənə operativ məlumat verilir. Ancaq bu gün gəlmişəm ki, sizinlə birlikdə bu səngərlərdə olum, sizə öz sözümü deyim və Azərbaycan xalqını buradan əmin edim ki, Azərbaycan ordusu Azərbaycan dövlətini qoruyur və öz məqsədinə çatacaq. Biz ərazi bütövlüyümüzü bərpa edəcəyik.

Sizi şərəfli xidmətinizdə bir daha salamlayıram və sizə bu şərəfli işdə yeni uğurlar arzulayıram.

# Prezident İlham Əliyevin Rusiyaya işgüzar səfəri

***Avqustun 9-da Rusiyanın Soçi şəhərindəki «Boçarov Ruçey» iqamətgahında Azərbaycan Prezidenti İlham Əliyevin və Rusiya Prezidenti Vladimir Putinin görüşü olub. Rusiya Prezidenti Vladimir Putin Azərbaycan dövlətinin başçısını salamlayaraq deyib:***

- Çox sağ olun ki, dəvətimizi qəbul etmisiniz. Bizim xeyli ikitərəfli və regional məsələlərimiz var. Şükür Tanrıya ki, münasibətlərimiz inkişaf edir, özü də yüksələn xətt üzrə. Biz öz səviyyəmizdə, hökumətlər səviyyəsində müntəzəm əlaqə saxlayırıq. İqtisadi, humanitar əlaqələr inkişaf edir, bəzi başqa istiqamətlər üzrə də əvvəllər görünməmiş dərəcədə fəal əməkdaşlıq edirik. Ümumiyyətlə, bu bizim ikitərəfli əlaqələrimizdə daim möhkəmlənən etimad elementidir. Biz buna çox şadıq. Yəqin ki, Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı köhnə, ağrılı problemlər barədə də söhbət edəcəyik.

Azərbaycan Prezidenti İlham Əliyev yenidən görüşmək, münasibətlərimizin gündəliyini müzakirə etmək imkanına görə şad olduğunu bildirib:

- Qeyd etdiyiniz kimi, bizim münasibətlərin çox pozitiv dinamikası - çoxillik, davamlı inkişaf dinamikası müşahidə edilir. Biz bunu çox yüksək qiymətləndirir və Rusiyanı beynəlxalq arenada əsas tərəfdaşlarımızdan biri hesab edirik. Əməkdaşlığımız çox sahələri əhatə edir - həm qarşılıqlı siyasi fəaliyyət sahəsində, həm də iqtisadi sahədə yaxşı nəticələr müşahidə olunur. Əmtəə dövriyyəsi artır. Bu göstərici keçən il də artıb, bu il də artım görürük. Struktur yaxşılaşır. Artıq sanballı həcmdə qarşılıqlı sərmayələr qoyulur. Təbii ki, bu, bizim münasibətlərə yeni dinamika verir. Sizin keçənilki çox uğurlu səfərinizi Azərbaycanda çox səmimi xatırlayırıq. Düşünürəm ki, bu səfər bizim münasibətlərin inkişafına ciddi təkan verib. Biz əməkdaşlıq potensialını qətiyyətlə artırmaq əzmindəyik.

Əlbəttə ki, regional təhlükəsizlik və regionumuzda sabitlik məsələləri daim gündəlikdədir. Biz, əlbəttə, həddən artıq uzanmış və öz həllini tələb edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsini də müzakirə edəcəyik.

Avqustun 10-da Soçi şəhərindəki «Boçarov Ruçey» iqamətgahında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyanın birgə görüşü keçirilib.

Rusiya dövlətinin başçısı Vladimir Putin Azərbaycan və Ermənistan prezidentlərini salamlayaraq deyib:

- Dünən bizim həm Ermənistan Prezidenti, həm də Azərbaycan Prezidenti ilə ikitərəfli münasibətlər barədə söhbət etmək imkanımız oldu. Axşam qeyri-formal şəraitdə də görüşdük. Düzdür, dünən axşam biz işgüzar xarakterli məsələlərə toxunmadıq. Bununla belə, bir-birimizlə müxtəlif mövzularda söhbət etməyə imkan oldu. Mənim fikrimcə, bu, regional tənzimləmə ilə bağlı ən mürəkkəb, ağır məsələlər barədə səmimi söhbət etmək üçün müəyyən şərait yaradır.

Təbii ki, bu problemlərin həllinin, Qarabağ münaqişəsinin tənzimlənməsinin beynəlxalq formatları mövcuddur. Şübhəsiz ki, biz bütün bu beynəlxalq formatlara hörmətlə yanaşırıq və həmkarlarımızla işləməkdə davam edəcəyik.

Lakin hər halda bizim xüsusi, daha yaxın münasibətlərimizin mövcud olmasını nəzərə alsaq, dərin tarixi keçmişimiz bizim haradа olmağımız və keçmişdən bizə miras qalmış bütün bu problemlərin nizamlanmasında irəliləmək üçün nə etmək lazım gəldiyi barədə səmimi fikir mübadiləsi aparmağa imkan verir. Hər halda mənə elə gəlir ki, bu, faydalıdır. İstənilən halda faydalıdır. Bu gün sizinlə görüşmək və bütün bu mövzular barədə söhbət etmək imkanına görə çox şadam.

Azərbaycan Prezidenti İlham Əliyev məsələyə münasibətinə görə Rusiya Prezidentinə minnətdarlıq edərək deyib:

- Qeyd etdiyiniz kimi, danışıqların formatı artıq mövcuddur, münaqişənin tənzimlənməsi üçün hüquqi baza da vardır. BMT Təhlükəsizlik Şurası Ermənistanın işğalçı qüvvələrinin Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. Təəssüf ki, 20 ildən çox keçib, amma həmin qətnamələr hələ də kağız üzərində qalıb.

Minsk qrupu həmsədrlərin şəxsində işləyir, tərəfləri yaxınlaşdırmağa cəhd göstərir, lakin bu, o qədər də yaxşı alınmır. Buna görə düşünürəm ki, Rusiya bizim yaxın dostumuz, tərəfdaşımız və qonşumuz kimi tənzimləmə prosesində, əlbəttə, xüsusi rol oynayır. Ümid edirik ki, biz ən yaxın vaxtda danışıqlar yolu ilə, sülh yolu ilə beynəlxalq hüququn norma və prinsiplərinə uyğun ədalətli həlli tapacağıq.

Avqustun 10-da Soçi şəhərindəki «Boçarov Ruçey» iqamətgahında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyanın birgə görüşü keçirilib.

2 İkinci rübün nəticələri qənaətbəxşdir

3 Yeni konsepsiya məşğulluğun təminatına xidmət edir

4 İşəgötürənlər əməkhaqlarının gecikdirilməsinə görə məsuliyyət daşıyırlar

5 Əmək müqaviləsi: gələcəyin təminatı

# İkinci rübün nəticələri qənaətbəxşdir

***Vergi ödəyicilərinin vergi qanunvericiliyinə əməl etməsinin mühüm göstəricilərindən biri vergi bəyannamələrinin və hesabatlarının vaxtında təqdim edilməsidir.***

2014-cü ilin 2-ci rübü üçün sadələşdirilmiş vergi bəyannamələrinin vaxtında təqdim edilməsi və hesablanmış vergilərin ödənilməsi məqsədilə Vergilər Nazirliyinin rəsmi internet səhifəsi (www.taxes.gov.az), sosial şəbəkələr, 195 Çağrı Mərkəzi və digər vasitələrdən istifadə etməklə vergi ödəyicilərinin məlumatlandırılması işləri davam etdirilmiş, bu məqsədlə 111325 vergi ödəyicisinin telefon nömrələrinə mesajlar göndərilmişdir.

Rüb üzrə təqdim edilməli olan 163345 sadələşdirilmiş vergi bəyannaməsindən 159835-i və ya 97,3%-i vaxtında, bunlardan 143103-ü və ya 89,5%-i elektron qaydada təqdim edilmişdir.

Bəyannamələrin vergi orqanları üzrə elektron formada təqdim edilməsi vəziyyəti (faizlə) aşağıdakı kimi olmuşdur:




# Operativ nəzarət tədbirləri görülür

2014-cü ilin iyul ayı ərzində əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması, nəzarət-kassa aparatlarından istifadə, vergi orqanlarında uçota durmadan fəaliyyət göstərən vergi ödəyicilərinin aşkarlanması və s. kimi operativ nəzarətin əhatə funksiyalarına daxil olan məsələlər üzrə vergi orqanları tərəfindən keçirilmiş tədbirlər zamanı 4727 vergi ödəyicisində qanunvericiliyin pozulması faktları aşkar edilmişdir. 695 vergi ödəyicisi tərəfindən qanunla nəzərdə tutulmayan valyutanın ödəniş vasitəsi kimi qəbul olunduğu, valyutanın ticarət, iaşə və xidmət müəssisələrində qanunsuz olaraq alınıb-satıldığı və ya dəyişdirildiyi, 215 vergi ödəyicisinin vergi orqanlarında uçota durmadan fəaliyyət göstərdiyi, 656 vergi ödəyicisinin xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə belə razılıq (lisenziya) almadan məşğul olduğu müəyyən edilmişdir.

Operativ nəzarət tədbirləri zamanı nöqsana yol vermiş 31 vergi ödəyicisi tərəfindən 45 nəfər fiziki şəxsin əmək müqaviləsi bağlamadan işə cəlb edildiyi, 250 vergi ödəyicisi tərəfindən fərqlənmə nişanı olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşındığı, 32 vergi ödəyicisində aksiz markaları ilə müvafiq qaydada markalanmamış 322 ədəd mal olduğu aşkarlanmışdır. Aşkara çıxarılmış faktlarla bağlı tədbirlər görülmüşdür.

# Malların və nəqliyyat vasitələrinin bəyan edilməsinin yeni qaydası tətbiq edilir

*Azərbaycanın gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi 2014-cü il noyabrın 1-dən yeni qaydalarla aparılacaq. Nazirlər Kabinetinin 22 iyul 2014-cü il tarixli qərarı ilə təsdiq edilmiş qaydalar artıq rəsmi mətbuatda dərc edilib. Qaydalar ölkəyə gətirilən və çıxarılan mallara və nəqliyyat vasitələrinə şamil edilir.*

Fiziki şəxslərin gömrük sərhədindən keçirilən malların bəyan edilməsinin sadələşdirilmiş qaydasından istifadə etməsi üçün gömrük sərhəd-buraxılış məntəqələrində ikikanallı - «Yaşıl kanal» və «Qırmızı kanal» buraxılış sistemləri tətbiq olunur. Müşayiət olunmayan baqajda keçirilən və poçt göndərişlərində göndərilən mallar istisna olmaqla, «Yaşıl kanal» buraxılış sistemi fiziki şəxslər tərəfindən malların şifahi formada bəyan edilməsi üçün nəzərdə tutulur. «Yaşıl kanal» buraxılış sistemi vasitəsilə mallar güzəştli qaydada, yəni malların gömrük rəsmiləşdirilməsi zamanı Gömrük Məcəlləsində nəzərdə tutulmuş gömrük prosedurlarından azad olunmaqla, gömrük ödənişləri alınmadan və ticarət siyasəti tədbirləri tətbiq edilmədən keçirilir. Fiziki şəxsin mallarını «Yaşıl kanal» buraxılış sistemindən istifadə etməklə gömrük sərhədindən keçirməsi onun əl yükündə və müşayiət olunan baqajında yazılı formada bəyan edilməli malların olmaması və bu malların gömrük orqanlarına şifahi bəyan edilməsi kimi qəbul edilir.

Gömrük bəyannaməsi kağız üzərində yazılı və ya elektron formalarda gömrük orqanlarına təqdim edilə bilər. Malların bəyan edildiyi gömrük proseduru üzrə yerləşdirilməsi üçün tələb olunan müvafiq sənədlər də həmin qaydada təqdim edilə bilər.

Gömrük ərazisinə gətirilən mallara dair gömrük bəyannaməsi həmin mallar gömrük ərazisinə gətirilən yerdəki gömrük orqanına, daxili tranzit xüsusi gömrük proseduru həyata keçirildikdə isə, təyinat gömrük orqanına təqdim edildiyi tarixdən 15 gündən gec olmayaraq verilməlidir.

Gömrük orqanları eyni malları və nəqliyyat vasitələrini gömrük sərhədindən müntəzəm olaraq keçirən şəxsə onları 30 gün müddətinə bir dövri bəyannamə əsasında keçirməsinə icazə verir.

Bu şərtlər üç və ya daha çox partiya mal tədarük edilərkən tətbiq edilir. Nəqliyyat vasitəsi gömrük ərazisinə daxil olduqdan sonra bir saat müddətində gömrük orqanlarına daxilolma haqqında məlumat verilməlidir.

Beynəlxalq hava, dəmiryol, dəniz, avtomobil nəqliyyatı daşımalarında istifadə edilən yüksüz və şərnişinsiz nəqliyyat vasitələrinin bəyan edilməsi Gömrük Məcəlləsinin tələblərinə uyğun aparılır.

**«Trend»**

**Vergi ödəyicilərinin nəzərinə!**

**Hörmətli vergi ödəyiciləri!**

**Əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sistemində (www.e-gov.az, www.mlspp.gov.az) qeydiyyatdan keçirildikdən sonra hüquqi qüvvəyə minir. Bunun üçün işəgötürənlərin və ya onların nümayəndələrinin gücləndirilmiş elektron imzası, o cümlədən "ASAN İmza"sı olmalıdır.**

Vergi ödəyiciləri "ASAN İmza" sertifikatını əldə etmək üçün "ASAN İmza" sim kartını Azərbaycanın hər üç mobil operatorundan 18 manat ödəməklə əldə edə və vergi ödəyicilərinə xidmət mərkəzlərinə yaxınlaşmaqla müvafiq sertifikatı ala bilərlər. Bundan sonra əmək müqavilələri elektron sistemə daxil edilir.

Vergilər Nazirliyi nəzərinizə çatdırır ki, işəgötürənlər tərəfindən əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi Vergi Məcəlləsinin 58.10-cu, İnzibati Xətalar Məcəlləsinin 53.1-ci və Cinayət Məcəlləsinin 162-1-ci maddələri ilə müəyyən edilmiş məsuliyyətə səbəb olur.

Nəzərinizə çatdırırıq ki, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə, ödənişsiz qaydada əmək müqavilələrinizi elektron sistemə daxil edə bilərsiniz.

**Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və "195" Çağrı Mərkəzindən əldə edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

**Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alır:**

Maddə 1. Azərbaycan Respublikasının Vergi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, №8, I kitab, maddə 583; 2001, №7, maddə 454, №9, maddə 576, №12, maddə 734; 2002, №5, maddə 249, №12, maddə 707; 2003, №8, maddə 425, №12, I kitab, maddə 671; 2004, №1, maddə 1, №11, maddə 887, №12, maddə 980; 2005, №2, maddə 61, №8, maddə 688, №12, maddə 1081; 2006, №12, maddələr 1005, 1026; 2007, №1, maddə 4, №6, maddə 597, №8, maddə 745, №11, maddə 1053, №12, maddə 1192; 2008, №7, maddə 602, №11, maddə 960; 2009, №7, maddə 506; 2011, №1, maddə 14, №7, maddələr 588, 603, №12, maddə 1115; 2012, №6, maddələr 500, 513, №7, maddə 652, №9, maddə 841, №12, maddə 1226; 2013, №2, maddə 91, №4, maddə 366, №11, maddə 1278, №12, maddələr 1483, 1486, 1495; 2014, №2, maddələr 94, 98) aşağıdakı dəyişikliklər edilsin:

198.1.1-ci maddədə «binaların inventarlaşdırılmış dəyərindən» sözləri «binaların sahəsinin (yaşayış sahələrinə münasibətdə - onların 30 kvadratmetrdən artıq olan hissəsinin) hər kvadratmetrinə görə aşağıdakı cədvəldə göstərilən dərəcələr tətbiq olunur (bina Bakı şəhərində yerləşdikdə, həmin dərəcələrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi 0,7-dən aşağı və 1,5-dən yuxarı olmayan əmsallar tətbiq edilməklə)» sözləri ilə və həmin maddənin ikinci abzası aşağıdakı cədvəllə əvəz edilsin:

| Yaşayış məntəqələri | Fiziki şəxsin xüsusi mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələri (manatla) |
|---|---|
| Bakı | 0,4 |
| Gəncə, Sumqayıt şəhərləri və Abşeron rayonu | 0,3 |
| Digər şəhərlər (rayon tabeliyində olan şəhərlər istisna olmaqla), rayon mərkəzləri | 0,2 |
| Rayon tabeliyində olan şəhərlərdə, qəsəbələrdə və kəndlərdə (Bakı və Sumqayıt şəhərlərinin, habelə Abşeron rayonunun qəsəbə və kəndləri istisna olmaqla) | 0,1 |

1.2. 200.1-ci maddənin birinci abzası aşağıdakı redaksiyada verilsin:

«Binalar üzrə əmlak vergisi əmlak sahəsinin hər kvadratmetrinə əsasən hesablanır.»;

1.3. 200.2-ci maddədə «dəyərindəki payına» sözləri «sahəsindəki payına» sözləri ilə əvəz edilsin.;

1.4. 206.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

«206.3. Bu Məcəllənin 206.1-ci maddəsində nəzərdə tutulmuş torpaqlar istisna olmaqla, torpaq sahəsinin hər 100 kvadratmetrinə görə aşağıdakı cədvəldə göstərilən dərəcələr tətbiq olunur:

| Yaşayış məntəqələri | Sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı torpaqlar *(manatla)* | | Yaşayış fondlarının, həyətyanı sahələrin torpaqları və vətəndaşların bağ sahələrinin tutduğu torpaqlar *(manatla)* | |
|---|---|---|---|---|
| | *10000 m²-dək olduqda* | *10000 m²-dən yuxarı olan hissə üçün* | *10000 m²-dək olduqda* | *10000 m²-dən yuxarı olan hissə üçün* |
| Bakı şəhəri, habelə onun qəsəbə və kəndləri | 10 | 20 | 0,6 | 1,2 |
| Gəncə, Sumqayıt, Xırdalan şəhərləri və Abşeron rayonunun qəsəbə və kəndləri | 8 | 16 | 0,5 | 1,0 |
| Digər şəhərlər və rayon mərkəzləri | 4 | 8 | 0,3 | 0,6 |
| Rayon tabeliyində olan şəhərlər, qəsəbələr və kəndlər | 2 | 4 | 0,1 | 0,2 |

Maddə 2. Bu Qanun 2015-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
***Azərbaycan Respublikasının Prezidenti***

Bakı şəhəri, 20 iyun 2014-cü il

# «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 2014-cü il 20 iyun tarixli 1004-IVQD nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

**Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 2014-cü il 20 iyun tarixli 1004-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ-hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 198.1.1-ci maddəsində nəzərdə tutulmuş fiziki şəxslərin əmlak vergisi məqsədləri üçün Bakı şəhərində yerləşən binalara tətbiq edilən əmsalları Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla üç ay müddətində müəyyən etsin;

1.5. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının və normativ xarakterli aktların «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki, Azərbaycan Respublikası Vergi Məcəlləsinin 198.1.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

**İlham ƏLİYEV,**
***Azərbaycan Respublikasının Prezidenti***

Bakı şəhəri, 11 avqust 2014-cü il

# Yeni konsepsiya məşğulluğun təminatına xidmət edir

*Beynəlxalq Əmək Təşkilatının (BƏT) rəsmi saytının «Gənclərin məşğulluq siyasətləri üzrə informasiya sistemi» bölməsində respublikamız gənclərin səmərəli məşğulluğunun təmin olunması məsələləri ilə bağlı dolğun hüquqi bazası, siyasi və praktik iş təcrübəsi, aktiv məşğulluq proqramları olan 41 ölkə sırasına daxil edilib.*

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə (ƏƏSMN) ünvanlanan məktubda bildirilir ki, gənclərin işlə təmin edilməsi BƏT-in fəaliyyətinin əsas prioritetlərindəndir və üzv ölkələrdə bu sahədə aparılan siyasət, həyata keçirilən proqramlar təşkilat tərəfindən diqqətlə izlənilir. Azərbaycanın əmək bazarında gənclərin layiqli yer tutmaları, onların məşğulluğu sahəsində yürüdülən səmərəli siyasət, dolğun hüquqi baza, uğurlu iş təcrübəsi müsbət dəyərləndirilərək, təşkilatın saytında təqdim olunan beynəlxalq məlumatlar bazasında yerləşdirilib. ƏƏSMN-dən bildirilir ki, Azərbaycan dünya miqyasında gənclərin məşğulluğu üzrə BMT-nin elan etdiyi on lider ölkə sırasına da daxil edilib.

2003-cü ilədək ölkədə işsizlik problemi yoxsulluğun yüksək səviyyəsi ilə müşayiət olunur, dövlət vətəndaşların sosial mənafelərini təmin edə bilmirdi. Məhz bu səbəbdən də ötən 10 ildə regional inkişafla bərabər, yeni iş yerlərinin açılması prosesi hökumətin xüsusi diqqət yetirdiyi məsələlərdən olmuşdur. 2003-cü ildən bölgələrdə işsizliyin xeyli dərəcədə azalması ilk növbədə regional inkişaf və sahibkarlığın dəstəklənməsi istiqamətindəki tədbirlərin uğurlu nəticəsi kimi özünü göstərir. Məsələn, 2009-2013-cü illəri əhatə edən regional inkişaf proqramı əmək ehtiyatlarından daha dolğun istifadəyə, əhalinin səmərəli məşğulluğunun təminatına imkan vermişdir. Bu məqsədə nail olmaq üçün proqram çərçivəsində kiçik və orta sahibkarlığın inkişafı üçün daha münbit şəraitin yaradılması, məşğulluğun səmərəli inkişafını təmin edən investisiya fəallığının dəstəklənməsi, işaxtaran və işsiz vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi və digər istiqamətlərdə mühüm tədbirlər həyata keçirilmişdir.

2014-2018-ci illəri əhatə edən növbəti regional inkişaf proqramında da məşğulluqla bağlı bir sıra mühüm hədəflər əksini tapmışdır. Qarşıdakı illərdə dövlətin siyasəti əhalinin məşğulluğunun inkişafına təsir edən investisiya mühitinin yaradılmasına, vergi, gömrük, təhsil və digər sahələrlə bağlı işlərin təkmilləşdirilməsinə, yeni iş yerlərinin açılmasını stimullaşdıran institusional mühitin formalaşmasına yönəldilən tədbirlərin məcmusundan ibarət olacaqdır. Bu məqsədlə regional iqtisadi əlaqələrin genişləndirilməsi; ədalətli rəqabət mühitinin formalaşdırılması və inkişafı; əmək qanunvericiliyinə riayət olunmasına nəzarətin təmini; neft ixracından əldə olunan gəlirlərin bir hissəsinin insan kapitalının inkişafına istiqamətləndirilməsi; elmtutumlu sahələrin inkişafı ilə bağlı qabaqcıl texnologiya və innovasiyaların tətbiqi; təklif olunan işçi qüvvəsi ilə mövcud iş yerlərinin sayı arasında tarazlığı təmin edən şəraitin yaradılması; kənd yerlərində sosial və kommunal infrastrukturun inkişaf etdirilməsi yolu ilə əhalinin miqrasiya səviyyəsinin azaldılması; qadınların və gənclərin məşğulluğunun səviyyəsinin artırılması kimi mühüm vəzifələr nəzərdə tutulmuşdur.

Prezident İlham Əliyev Nazirlər Kabinetinin ötən ay keçirilmiş iclasında ölkə əhalisinin sürətli say artımı şəraitində yeni məşğulluq strategiyasının həyata keçirilməsi zərurətini xüsusi diqqətə çəkərək demişdir: «...Vaxt gəlib çatıb ki, bu məsələ ilə bağlı düşünülmüş konsepsiya hazırlansın. Bu günə qədər bu, bir qədər kortəbii proses kimi gedirdi. Ancaq bizim əhalimiz bundan sonra da artacaqdır. Əhali nə qədər artsa, sonrakı illərdə o faiz də bir o qədər böyük rəqəmlərlə ölçüləcəkdir. Bir var ki, 8 milyon əhali bir, ya iki faiz artır, bir də var ki, on milyon əhali. Yəni rəqəmlər də mütləq böyüyəcəkdir. Ona görə biz uzunmüddətli məşğulluq konsepsiyasının müzakirəsini başlamalıyıq».

Məşğulluq strategiyasının reallaşdırılması çərçivəsində ƏƏSMN-in və Vergilər Nazirliyinin Bakıda və regionlarda əmək bazarına nəzarətin gücləndirilməsi, qeyri-leqal məşğulluğun aradan qaldırılması istiqamətində həyata keçirdiyi tədbirlər də mühüm yer tutur. Ölkə başçısının 2014-cü il 3 fevral tarixli «Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında» qanunun tətbiqi barədə fərmanı Azərbaycanda qeyri-leqal məşğulluqla mübarizə, əmək bazarına nəzarətin gücləndirilməsi və işçilərin əmək hüquqlarının etibarlı təminatı baxımından müstəsna əhəmiyyətə malikdir. Xatırladaq ki, fərmanla Əmək Məcəlləsinin 49-cu maddəsinə edilmiş dəyişikliyə əsasən, əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi bununla bağlı elektron informasiya sisteminə daxil edilmiş əmək müqaviləsi bildirişinin həmin elektron informasiya sistemində qeydiyyata alınmasından və bu barədə işəgötürənə elektron qaydada məlumat göndərilməsindən sonra hüquqi qüvvəyə minir.

2014-cü ilin birinci yarısında əmək qanunvericiliyinin gözlənilməsinə nəzarət üzrə inzibati tədbirlər də sərtləşdirilmişdir. Bu tədbirlər və vətəndaşların müraciətlərinin araşdırılması zamanı 9269 halda işəgötürənlər tərəfindən əmək qanunvericiliyinin tələblərinin pozulduğu aşkar edilmiş, 2 milyon 352 min manat məbləğində cərimə tətbiq olunmuş, bunun 35,3%-i dövlət büdcəsinə ödənilmişdir. İlin ilk 6 ayında 5613 işçi ilə əmək müqaviləsinin bağlanılması təmin olunmuşdur.

Son bir il ərzində ölkədə iqtisadi fəal əhalinin sayı 1,5% artaraq 2014-cü ilin 1 iyul tarixinə 4 milyon 794 min nəfərə, məşğul əhalinin sayı isə 1,7% artaraq 4 milyon 556 min nəfərə çatmışdır. ƏƏSMN əmək ehtiyatlarının keyfiyyətinin yüksəldilməsinə və işçi qüvvəsindən istifadənin səmərəliliyinin artırılmasına nail olmaq üçün turizm, emal sənayesi, tikinti, energetika, kənd təsərrüfatı, nəqliyyat və xidmət sahələrinə aid 200 peşə standartı hazırlayaraq ilin əvvəlindən sahibkarların istifadəsinə vermişdir. Bu prosesin davam etdirilməsi və müxtəlif sahələrə aid daha 5 mindən çox peşə standartının hazırlanması nəzərdə tutulur. Nazirlik hesab edir ki, əlverişli demoqrafik vəziyyətin formalaşdığı hazırkı dövrdə bu problemin həlli xüsusi əhəmiyyətə malikdir: son 10 il ərzində əhalinin orta illik artım göstəriciləri yüksəlmiş, orta ömür müddəti uzanmış və müsbət miqrasiya saldosuna nail olunmuşdur. Əhalinin ümumi strukturunda 15-64 yaş qrupunun payı 66,7%-dən 71,8%-ə yüksəlmişdir.

Əhalinin kəmiyyət və keyfiyyət artımını tənzimləmək məqsədilə hazırda «Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində (2014-2025-ci illər) Dövlət Proqramı»nın layihəsi üzərində iş başa çatdırılmışdır.

İndi Azərbaycanda işsizliyin səviyyəsi 5% civarındadır. Həyata keçirilən tədbirlər deməyə əsas verir ki, respublikamız yaxın illərdə ən yüksək məşğulluğa malik ölkələrdən biri olacaqdır.

*«...Vaxt gəlib çatıb ki, bu məsələ ilə bağlı düşünülmüş konsepsiya hazırlansın. Bu günə qədər bu, bir qədər kortəbii proses kimi gedirdi. Ancaq bizim əhalimiz bundan sonra da artacaqdır. Əhali nə qədər artsa, sonrakı illərdə o faiz də bir o qədər böyük rəqəmlərlə ölçüləcəkdir. Bir var ki, 8 milyon əhali bir, ya iki faiz artır, bir də var ki, on milyon əhali. Yəni rəqəmlər də mütləq böyüyəcəkdir. Ona görə biz uzunmüddətli məşğulluq konsepsiyasının müzakirəsini başlamalıyıq».*

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

**S.ELMANOĞLU**

# «E-hökumət» vətəndaş maraqlarını önə çəkir

Ölkəmizdə «Elektron hökumət»in formalaşdırılmasının və dövlət orqanlarında informasiya texnologiyalarının genişmiqyaslı istifadəsinin əsası «Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)» ilə qoyulmuşdur. Ölkə başçısının 2011-ci il 23 may tarixli Fərmanı ilə «Elektron hökumət»in formalaşdırılması və elektron xidmətlərin inkişaf etdirilməsi prosesi daha da geniş vüsət aldı. Daha sonra 2013-2015-ci illərdə dövlət orqanlarında elektron xidmətlərin genişləndirilməsi və «Elektron hökumət»in inkişafına dair Dövlət Proqramı hazırlanmışdır.

Bu gün «E-hökumət» portalı bütün dövlət qurumlarının xidmətlərinə tək bir nöqtədən giriş, eyni zamanda dövlət qurumlarının xidmətləri ilə əlaqədar doğru və aktual məlumatlara çatma imkanını təmin edir. İndi portalda əhalinin isifadəsinə 351 elektron xidmət verilib. Nazirlər Kabinetinin 1 may 2014-cü il tarixli qərarı ilə «Elektron hökumət» portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının siyahısı» təsdiq edilmişdir.

Portalda istifadəçi tələbatına uyğun şəkildə yeni-yeni bölmələr yaradılaraq istifadəçilərə təqdim edilir. Bu günlərdə istifadəyə verilən «Mənim xidmətlərim» servisi vasitəsilə istifadəçiyə öz maraq dairəsində olan və daha çox istifadə etdiyi elektron xidmətləri qruplaşdırmaq imkanı yaradılıb. İstifadəçi bu xidmətdən istifadə etməklə portala daxil olaraq çoxsaylı xidmətlər arasından özünə lazım olanı axtarmaq üçün vaxt itirmək məcburiyyətində qalmayacaq. Öz gündəlik tələbatına uyğun olaraq ən çox istifadə etdiyi xidmətləri «Mənim xidmətlərim» servisi vasitəsilə birləşdirib vaxtına qənaət etmiş olacaq. İstifadəçi istənilən sayda xidmət qrupu yarada və bir qrupda istənilən sayda xidmət yerləşdirə bilər. Bununla yanaşı, xidmət qrupunu ləğv etmək və ya qrupdan hansısa xidməti çıxarmaq da mümkündür. Sözügedən xidmətdən yararlanmaq üçün istifadəçi portala daxil olaraq, təqdim olunan giriş vasitələrindən birini seçib autentifikasiyadan keçdikdən sonra «E-xidmətlər» bölməsini seçir və ümumi xidmətlər siyahısına daxil olur. Bu bölmədə yerləşdirilmiş «+» işarəsini seçdikdən sonra ən çox istifadə etdiyi e-xidmətlər üçün başlıq qeyd edərək qrup yaradır. Bunun ardınca müvafiq qurumlara daxil olaraq istifadə etdiyi e-xidmətin qarşısında yerləşən ulduz işarəsini seçir. Beləliklə, seçilən e-xidmətlər «Mənim xidmətlərim» servisində qeyd edilir.




Yaxın vaxtlarda portalda daha bir yenilik də tətbiq olunacaq. Nəzərdə tutulmuş yenilik istifadəçilərə portalda «şəxsi kabinet» yaratmağa imkan verməlidir. Bunun üçün dövlət qurumlarında informasiya ehtiyatlarının müəyyənləşdirilmiş tələb və standartlara uyğun elektron formaya gətirilməsi və fərdi identifikasiya nömrəsinə (FİN) uyğunlaşdırılması vacib şərtdir, bununla bağlı Nazirlər Kabinetinin müvafiq qərarı da var. Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) məlumatına görə, məlumat-hesablama mərkəzi tərəfindən bu istiqamətdə tədbirlər həyata keçirilir. İşıq, qaz və su abunəçiləri üzrə məlumat bazaları kommunal idarələrdən alınaraq telefon abunəçiləri və şəxsiyyət vəsiqələri üzrə məlumat bazası ilə üzləşdirilmiş və uyğunluq tapılan abunəçi kodlarına şəhər telefon nömrəsi və FİN-in kodu əlavə edilmişdir. Bunun nəticəsində portalda RYTN üzrə yerləşdirilmiş «Rabitə və kommunal xidmət haqlarının internet vasitəsilə ödənilməsi» elektron xidməti vasitəsilə vətəndaşlar kommunal kodları daxil etmədən yalnız telefon nömrəsi ilə kommunal xidmət borclarını rahatlıqla ödəyə bilirlər. Hazırda qurumların informasiya ehtiyatlarının «Elektron hökumət» portalına inteqrasiya edilməsi, müvafiq servislərin hazırlanıb portalda istismara verilməsi ilə bağlı ciddi işlər aparılır. Bu işlər yekunlaşdıqdan sonra hər bir istifadəçi portalda öz «şəxsi kabinet»ini formalaşdıra biləcək və kabinetə daxil olarkən özünə aid bütün məlumatları (şəhər və mobil telefon borcları, kommunal xidmət borcları, yol-hərəkət qaydalarının pozulmasına görə cərimələr və cərimə balları, öz adına olan daşınmaz əmlak, şirkət, vergi borcları və s.) asanlıqla əldə edə biləcək.

**AYTƏN**



Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

# Mikro və makroiqtisadi səviyyədə vergi tənzimlənməsi

Hər bir dövlətdə vergi siyasəti həmin siyasət əsasında qurulmuş vergi sistemi vasitəsilə həyata keçirilir. Vergi sistemi dövlət və müəssisələr arasında yaranan vergi münasibətlərinin tənzimlənməsində istifadə olunan alətdir. Vergi tənzimlənməsi dedikdə, cəmiyyətin iqtisadi həyatında baş verən proseslərə məqsədyönlü təsir göstərən və vergitutma ilə bağlı tədbirlər sistemindən ibarət vergi mexanizmi başa düşülür. Vergi tənzimlənməsi təkcə ayrı-ayrı müəssisələri deyil, həm də bütün iqtisadiyyatı əhatə edir: ümumi daxili məhsulun bölüşdürülməsi və yenidənbölüşdürülməsi vergilərin fiskal və tənzimləyici funksiyalarının yerinə yetirilməsi nəticəsində baş verir. Vergi tənzimlənməsi həm də ayrı-ayrı inhisarçı firmaların fəaliyyəti ilə bağlı məhdudlaşdırıcı tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Vergilər öz funksiyalarını kapital dövriyyəsinin bütün mərhələlərində iştirak etməklə yerinə yetirir. Əgər vergilər fiskal funksiyanı yerinə yetirərkən kapitalın mal formasından pul formasına keçməsinə təsir göstərmiş olursa, tənzimləyici funksiyanın yerinə yetirilməsi zamanı öz təsirini istehsal və istehlak proseslərində göstərir.

Müəssisənin maliyyə resurslarının bölüşdürülməsindən və dövlət gəlirlərinin formalaşmasından, həmçinin büdcəyə yığılan pulların məqsədli istifadə olunmasından asılı olaraq vergi tənzimlənməsi iki səviyyədə: mikro və makroiqtisadi səviyyədə həyata keçirilir.

Mikroiqtisadi səviyyədə vergi tənzimlənməsi təsərrüfat subyektlərində tətbiq olunan ayrı-ayrı vergilərin tətbiq olunmasını nəzərdə tutan qanunvericilik aktlarının qəbul edilməsi ilə baş verir. Bu o deməkdir ki, dövlət təsərrüfat subyektlərinin iqtisadiyyatına təsir göstərə biləcək məqsədli tədbirlərini icbari-qanuni şəkildə həyata keçirir. Bütün subyektlər arasında vergi öhdəlikləri onların mülkiyyət formasından, fəaliyyətin təşkilati-hüquqi xarakterindən asılı olmayaraq bölüşdürülür.

*Müəssisənin maliyyə resurslarının bölüşdürülməsindən və dövlət gəlirlərinin formalaşmasından, həmçinin büdcəyə yığılan pulların məqsədli istifadə olunmasından asılı olaraq vergi tənzimlənməsi iki səviyyədə: mikro və makroiqtisadi səviyyədə həyata keçirilir*

Beynəlxalq təcrübədə mikroiqtisadi səviyyədə vergi tənzimlənməsinin həyata keçirilməsinin aşağıdakı metodları mövcuddur:

- vergi güzəştlərinin dəyişdirilməsi;
- vergi dərəcələrini artırmaqla və ya aşağı salmaqla onların diferensasiya olunması;
- vergilərdən tam və qismən azadolunma;
- vergilərin ödənilməsi müddətlərinin uzadılması və ya vergi borcunun silinməsi;
- vergi qanunvericiliyinin pozulmasına görə maliyyə sanksiyalarının tətbiqi;
- investisiyaların əsas vəsaitlərin bərpasına yönəldilməsinin stimullaşdırılması məqsədilə müəssisələrə vergi kreditlərinin verilməsi.

Yuxarıda göstərilən metodlar təsərrüfat subyektləri səviyyəsində tətbiq olunur və bu metodlara edilən hər hansı dəyişiklik vergi ödəyicisinin maliyyə vəziyyətinə birbaşa təsir göstərmiş olur.

Mikroiqtisadi səviyyədə vergi tənzimlənməsi mexanizmi fiskal və tənzimləyici xarakterə malik tədbirlərdən ibarət olmaqla, həm də ayrıca götürülmüş regionda sahibkarlıq fəaliyyətinin aktivliyinin artırılmasına və stimullaşdırılmasına yönəldilən tədbirlərdən ibarət olur.

Makroiqtisadi səviyyədə vergi tənzimlənməsi təsərrüfat subyektlərinin fəaliyyətinə birbaşa təsir göstərilməsi yolu ilə deyil, ümumi daxili məhsulun yenidən bölüşdürülməsi vasitəsilə həyata keçirilir. Amortizasiya, kredit siyasəti və s. alətlərdən istifadə edilməklə həyata keçirilən vergi tənzimlənməsi ictimai istehsala da böyük təsir göstərir. Onu da qeyd etmək lazımdır ki, ümumi daxili məhsulun yenidənbölüşdürülməsi aləti kimi vergilər iqtisadi proseslərə mövcud tendensiyalardan, iqtisadi inkişaf tempindən gecikməklə təsir göstərir.

Makroiqtisadi səviyyədə vergi tənzimlənməsi vasitəsilə ölkənin inzibati ərazilər üzrə balanslaşdırılmış inkişafını təmin etmək üçün azad iqtisadi zonalar metodundan istifadə edilir. İqisadi ərazidə vergilərin tətbiqi müəyyən dövr ərzində dayandırılmaqla və ya vergi dərəcələri aşağı salınmaqla həmin ərazidə sahibkarlığın inkişafına investisiyaların yönəldilməsi üçün əlverişli şərait yaradılır.

Göstərilənlərlə yanaşı, cəmiyyətin sosial inkişafının təmin edilməsi dövlətin həyata keçirdiyi siyasətin əsas istiqamətlərindən biri olduğu üçün sosial sferaya investisiya qoyan müəssisələrin vergitutmadan azad olunması barədə qərarlar qəbul edilir. Vergi tənzimlənməsi vasitəsilə dövlət əhalinin alıcılıq qabiliyyətinə təsir göstərməklə, malların istehsalını və onlara olan təklifləri tənzimləyir. Buna misal olaraq malların qiymətinə dolayı vergilərin (ƏDV, aksiz) əlavə olunmasını göstərmək olar: bazarda tələb və təklif balanslaşdırıldığı bir vaxtda dolayı vergilərin dərəcələrinin dəyişdirilməsi bu tarazlığın pozulmasına səbəb olur.

Ümumiyyətlə, iqtisadiyyatın dövlət tənzimlənməsi dövlətin həyata keçirdiyi iqtisadi siyasətə əsaslanır. İqtisadi siyasət isə, öz növbəsində, obyektiv iqtisadi qanunlardan, mövcud sosial-iqtisadi şəraitdən irəli gələrək müəyyən edilir. Cəmiyyətin sosial-iqtisadi inkişafı vergi tənzimlənməsi ilə sıx əlaqədə olduğu üçün vergitutma prosesində təsərrüfat subyektlərinin, həmçinin dövlət büdcəsi vəsaitlərinin bölüşdürülməsi baş verir. Büdcə vəsaitlərinin də yenidənbölüşdürülməsi həyata keçirilməklə müəssisələrin fəaliyyətinin stimullaşdırılması və sosial problemlərin həlli təmin edilir.

Bunlar belə nəticəyə gəlməyə əsas verir ki, mikro və makroiqtisadi səviyyədə dövlətin tətbiq etdiyi vergi tənzimlənməsi bütün hallarda cəmiyyətin sosial və iqtisadi sferalarında formalaşmış real vəziyyət nəzərə alınmaqla müəyyən olunmalıdır.

# Elektron ticarətin həcmi artır

İqtisadiyyat və Sənaye Nazirliyi (İSN) tərəfindən Azərbaycanın ilk elektron ticarət portalı (e-trade) 5 il əvvəl istifadəyə verilib. Portal yerli sahibkarların istehsal etdikləri məhsullar və göstərdikləri xidmətlər barədə məlumatları potensial alıcılara çatdırır və onlar arasında biznes əlaqələrinin qurulmasına dəstək göstərir. Portaldan xarici iş adamları da fəal şəkildə yararlanmaqdadır. «Business to business» modeli əsasında fəaliyyət göstərən bu layihə çərçivəsində indiyədək yüzlərlə azərbaycanlı və əcnəbi sahibkar işbirliyinin qurulmasına, ticarət əməliyyatlarının aparılmasına nail olub. İndiyədək portalın xidmətlərindən 36 mindən çox istifadəçi yararlanıb ki, müraciət edənlərin 30%-ə yaxını xarici sahibkarlardır. 2014-cü ilin 6 ayı ərzində elektron ticarət portalının xidmətlərindən 10.000-dən çox istifadəçi yararlanıb. Bunların 1.800-dən çoxu Rusiya, ABŞ, Türkiyə, Çin, Almaniya, Böyük Britaniya, Hindistan, İndoneziya, Braziliya, İtaliya, Qazaxıstan, Estoniya, Gürcüstan, Danimarka, Yunanıstan, Latviya, Fransa, BƏƏ və digər ölkələrin təmsilçiləridir. İlin əvvəllərindən başlayaraq təkmilləşdirilən portalda ölkəmizdəki sahibkarlıq mühiti sahəsində görülən işlər, qanunvericiliyin təkmilləşdirilməsi, elektron xidmətlər və e-ödəmələr, biznesə başlama, qeydiyyat, biznes sektorunda yeniliklər öz əksini tapıb.




Xarici sahibkarlar Azərbaycanın sahibkarlıq mühiti, icazəverici sənədlər, onların alınması prosedurları, təqdim edilməli sənədlər, qanunvericiliyə dair zəruri məlumatların əldə edilməsi baxımından portalı zəngin mənbə hesab edirlər. Beynəlxalq Maliyyə Korporasiyasının nümayəndəsi Boris Devyak bildirib ki, portal sahibkarlıq fəaliyyətinə başlamaq və fəaliyyətini genişləndirmək istəyən iş adamları üçün vahid informasiya mənbəyi olmaqla yanaşı, qarşılıqlı ticarətin genişlənməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda, bu portal e-ticarət sahəsində digər layihələrin həyata keçirilməsi üçün də nümunədir. Almaniya Texniki Əməkdaşlıq Cəmiyyətinin (GTZ) nümayəndəsi Sandra Dompke belə hesab edir ki, Azərbaycanda istehsalçı və istehlakçı arasında əlaqələrin yaradılmasında e-ticarət portalının rolu çox böyükdür. Bu, məhsulların satışında və satış-menecment əlaqələrinin qurulmasında çətinliklərlə üzləşən biznes nümayəndələri üçün açıq satış məkanı deməkdir.

«Elektron hökumət» proqramı çərçivəsində tətbiq olunan e-xidmətlərin çeşidlərinin artması, elektron imza infrastrukturunun yaradılması, elektron sənəd dövriyyəsinin genişlənməsi, dövlət orqanları, əhali və biznes qurumları arasında elektron xidmətlərin həyata keçirilməsi e-ticarət üçün əlverişli şərait hesab olunur. İSN ölkədə e-ticarətin inkişaf etdirilməsi üçün müvafiq iqtisadi qurumlarla birgə yeni layihələrin hazırlandığını, özəl şirkətlərin bu prosesə cəlb olunduğunu, eyni zamanda, e-ticarətin aparılmasında bəzi güzəştlərin tətbiqi üçün təkliflər irəli sürüldüyünü bildirir.

Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə birgə e-ticarətin genişləndirilməsi məqsədilə elektron mağazaların yaradılması nəzərdə tutulur. Elektron mağazalar layihəsinin paytaxtla yanaşı, respublikamızın bütün bölgələrində təşkili planlaşdırılır. Bu məqsədlə müxtəlif bölgələrin mövcud kommunikasiya sistemlərinin vəziyyəti, infrastruktur təminatı təhlil olunur, vətəndaşların e-ticarətlə bağlı məlumatlılıq səviyyəsi öyrənilir. E-ticarətin ən geniş yayılmış formalarından olan virtual ticarət mərkəzinin infrastrukturu da genişlənməkdədir. Bu resurs vahid platforma çərçivəsində Azərbaycanın müxtəlif internet mağazalarını birləşdirən elektron məkandır və əsas məqsədi ölkədə elektron ticarətin inkişafına təkan verməkdir. Onun konsepsiyasına əsasən, bütün ticarət şirkətlərinin platformasında pulsuz olaraq virtual satış məntəqəsinin açılması üçün imkanlar yaradılır.

Yeri gəlmişkən, Nazirlər Kabineti ölkə əhalisinin internet üzərindən alış-verişə olan marağının və e-ticarətə müraciət edənlərin sayının çoxalmasını nəzərə alaraq idxal-ixrac qaydalarının təkmilləşdirilməsinə qərar verib. 2013-cü il 14 oktyabr tarixli qərarla «Fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş Qaydaları» təsdiq edilib. Ötən ilin sonlarından qüvvəyə minən həmin sənədin icrası vətəndaşların alış-veriş zamanı elektron ticarətə üstünlük verməsinə öz təsirini göstərir. 2014-cü ilin birinci yarısında elektron ticarətin həcmi artıb. İlin ilk altı ayında elektron ticarət dövriyyəsinin həcmi 2013-cü ilin yanvar-iyun aylarına nisbətən 15,8% artaraq 1,3 milyon manat təşkil edib. Real vaxt rejimində sifariş verilmiş istehlak mallarının 78,7%-i hüquqi, 21,3%-i fərdi sahibkarların ticarət şəbəkələrindən alınıb. 2014-cü ilin ilk yarısında Azərbaycanda elektron ticarət dövriyyəsinin 90,6%-ni qeyri-ərzaq malları təşkil edib.

**Elbrus CƏFƏRLİ**

# İşəgötürənlər əməkhaqlarının gecikdirilməsinə görə məsuliyyət daşıyırlar

## *Hər gecikdirilmiş gün üçün işçiyə əməkhaqqının azı bir faizi məbləğində ödənc verilməlidir*

*Əmək bazarının mövcud iqtisadi inkişaf templərinə və xüsusiyyətlərinə uyğunlaşdırılması, əmək potensialından daha dolğun istifadə olunması, yeni iş yerlərinin açılması və bu iş yerlərində əmək qanunvericiliyinə tam riayət olunması hökumətin diqqət mərkəzində olan əsas məsələlərdəndir. Son illər Azərbaycanda minlərlə yeni iş yeri açılsa da, işcilərin hüquqlarının pozulması halları tez-tez müşahidə olunmaqdadır. Xüsusilə əməkhaqlarının, müavinətlərin, mükafatların və s. ödənişlərin ödənilməsində qanunvericiliyin tələblərinin pozulması hallarına daha sıx rast gəlinir.*

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti ötən il əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarəti, eləcə də vətəndaşların müraciətlərinin araşdırılması nəticəsində işçilərə ödənilməsi gecikdirilmiş ümumilikdə 634 min 917 manat məbləğində sosial xarakterli ödəmələrin ödətdirilməsini təmin edib. Nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, həmin vəsaitlərdən 589 min 853 manatını əməkhaqları, 28 min 952 manatını zərərə görə ödənclər, 16 min 112 manatını isə sosial müavinət və kompensasiyalar, mükafatlar və s. təşkil edib.

İyul ayında işçilərə ödənilməsi gecikdirilmiş ümumilikdə 20 min 409 manat məbləğində sosial xarakterli ödənişlərin ödətdirilməsi təmin edilib. Bu məbləğin 17 min 954 manatı əməkhaqlarından, 1499 manatı zərərə görə ödənclərdən, 956 manatı isə sosial müavinət və kompensasiyalardan ibarət olub. Həmçinin qeyd olunan müddətdə işəgötürənlər və əmək kollektivləri arasında tərəflərin razılığı əsasında əmək münasibətlərinə dair əlavə şərtləri müəyyən edən 34 kollektiv müqavilə bağlanılıb.

Dövlət Əmək Müfəttişliyi Xidməti əmək qanunvericiliyinə hər kəsin riayət etməli olduğunu bəyan edir. Bildirilir ki, işəgötürən maliyyə vəziyyətindən asılı olmayaraq işçiyə onun gördüyü işin müqabilində müəyyən edilmiş əməkhaqqını Əmək Məcəlləsinin 172-ci maddəsi ilə müəyyən edilmiş müddətlərdə ödəməyə borcludur.

İşçiyə aylıq əməkhaqqının ödənilməməsində təqsirkar olan işəgötürən qanunvericilikdə nəzərdə tutulan qaydada məsuliyyətə cəlb edilməlidir. Əgər ödəncləri ödəməyə işəgötürənin maddi-maliyyə imkanı yoxdursa, onda işçilərə həmin ödənclər müvafiq qaydalara uyğun olaraq müəssisənin əmlakı satılmaqla və ya müvafiq normativ-hüquqi aktlarla müəyyən edilən qaydada dövlət tərəfindən yaradılmış təminat sistemi ilə ödənilməlidir.

Əmək Məcəlləsinə əsasən, əməkhaqqının verilməsi işəgötürənin təqsiri üzündən gecikdirildikdə və bu hal fərdi əmək mübahisəsi yaratmadıqda hər gecikdirilmiş gün üçün işçiyə əməkhaqqının azı bir faizi məbləğində ödənc verilməlidir.

Qanunvericiliyə əsasən, «işəgötürənin təqsiri üzündən gecikdirildikdə» dedikdə, əməkhaqqının müəyyən edilmiş vaxt ərzində hesablanmaması, onun müvəkkil bankdan alınmaması, maliyyə və mühasibat uçotu əməliyyatlarının vaxtında aparılmaması nəticəsində, habelə bilavasitə işəgötürənin iradəsindən və imkanlarından asılı olan hallarda müəyyən edilən müddətdə işçilərə əməkhaqqının ödənilməməsi başa düşülməlidir. Bu qayda o hallara şamil edilmir ki, müştərisi olduğu bank tərəfindən qanunvericiliyin tələblərinə zidd olaraq maliyyə vəsaitləri ilə bağlı əməliyyatlar düzgün aparılmasın, bank müflisləşsin, həmçinin görülmüş işin və ya yerinə yetirilmiş xidmətin haqqının başqa işəgötürən tərəfindən ödənilməməsi nəticəsində işçilərin əməkhaqqını vaxtında verməyə işəgötürənin özündən asılı olmayan səbəblərə görə imkanı olmasın.

**Rəşad SADIQOV**

# Güzəştli kreditlər sahibkarların maraqlarına xidmət edir

Sahibkarlığa Kömək Milli Fondunun (SKMF) maliyyə dəstəyi ilə verilən güzəştli kreditlər sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin bizneslərinin inkişaf etdirilməsinə, yeni iş yerlərinin açılmasına, biznes mühitinin yaxşılaşdırılmasına təkan verir. Fondun vəsaitlərindən istifadə edən kiçik sahibkarlıq sektoru ətlik və südlük istiqamətli cins heyvandarlıq komplekslərinin, müasir quşçuluq təsərrüfatlarının yaradılması və ya bərpası, logistika (qida və qeyri-qida məhsullarının saxlanması, daşınması və satışı) mərkəzlərinin, müasir tələblərə cavab verən meyvə-tərəvəz məhsullarının emalı müəssisələrinin, iri taxılçılıq və ya toxumçuluq təsərrüfatlarının, yağlı bitkilər əkini və emalı, qarışıq yem istehsalı müəssisələrinin, intensiv bağçılıq və ya tingçilik, intensiv üzümçülük təsərrüfatlarının, üzüm emalı və digər sənaye müəssisələrinin yaradılmasını əhatə edir. Bu istiqamətlər üzrə güzəştli kreditlərdən istifadə olunmadıqda kreditlər 10 gün ərzində geri tələb edilir. Müvəkkil kredit təşkilatlar fond tərəfindən müəyyən edilmiş qaydalara uyğun olaraq ildə iki dəfədən az olmayaraq fondun vəsaitlərinin hər bir sahibkarlıq subyekti tərəfindən investisiya layihəsi üzrə istifadə edilməsinin monitorinqini aparıb bu barədə fonda hesabat verir. Monitorinq zamanı güzəştli kredit vəsaitinin təyinatı üzrə istifadə edilməməsi halları aşkar edildikdə, sahibkarlıq subyektindən güzəştli kreditin və hesablanmış faiz borcunun vaxtından əvvəl ödənilməsi tələb edilir.

Qeyd edək ki, kiçikhəcmli güzəştli kreditlər 5 min manatdan 50 min manatadək və 3 il müddətinə verilir. Ortahəcmli kreditlər 50 min 1 manatdan 500 min manatadək 5 il müddətinə, böyükhəcmli kreditlər isə 500 min 1 manatdan 10 milyon manatadək və 10 il müddətinə illik 6 faizlə verilir.

Güzəştli kredit almaq üçün sahibkarlar müvəkkil kredit təşkilatlarına şəxsən, yaxud «Elektron idarəetmə sistemi» vasitəsilə elektron formada müraciət edə bilərlər. «Elektron idarəetmə sistemi» sahibkarların müraciətlərinə müvəkkil kredit təşkilatları tərəfindən baxılaraq daha tez münasibət bildirmələrini və rəsmi cavab vermələrini təmin edir, layihənin maliyyələşdirilməsi prosesinə operativ nəzarət imkanlarını artırır. Eləcə də sənəd dövriyyəsini daha sürətli və təhlükəsiz həyata keçirməsi təmin olunur, sahibkarın investisiya tələbatının müəyyənləşdirilməsi, layihələrini maliyyələşdirilməsi prosesinin daha da optimallaşdırılması və onların güzəştli kreditlər almaq imkanlarını daha da asanlaşdırmağa şərait yaradır. Sahibkarlar internetə çıxışı olan kompüter, telefon və ya planşet vasitəsilə günün istənilən vaxtı SKMF saytına (www.anfes.gov.az) daxil olaraq sistemdən istifadə etməklə müvəkkil kredit təşkilatına getmədən güzəştli kreditlər əldə etmək üçün müraciət edə bilərlər. Bunun üçün məlumat formasını dolduraraq qeydiyyatdan keçməli və daha sonra şəxsi səhifəsinə daxil olmalıdır. Tələb olunan məlumatları daxil etdikdən və sənədləri sistemə yüklədikdən sonra elektron müraciət seçilmiş müvəkkil kredit təşkilatına göndərilir və sistem bu barədə sahibkara bildiriş təqdim edir. Müvəkkil kredit təşkilatında investisiya layihəsinin qiymətləndirilməsi ilə əlaqədar bütün proseslər elektron sistem vasitəsilə qanunvericilikdə müəyyən edilmiş müddətdə yerinə yetirilir və müsbət qiymətləndirilmiş layihələr maliyyələşdirilmək üçün elektron formada Sahibkarlığa Kömək Milli Fonduna göndərilir. Bundan sonra investisiya layihəsi elektron sistemdə qeydiyyata alınır və ekspertiza edildikdən sonra maliyyələşdirilməsi haqqında müsbət qərar verildiyi halda tələb olunan kredit vəsaiti müvəkkil kredit təşkilatının sifarişi əsasında onun bank hesabına köçürülür.

Bu ilin birinci yarısı ərzində 2632 sahibkara 129 milyon manat (avqustun ilk həftəsinə olan son statistikaya əsasən, 3100-ə yaxın sahibkara 160 milyon manatdan artıq) güzəştli kredit verilib. Həmin kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması 6 minə yaxın yeni iş yerinin yaradılmasına imkan verib. Layihələrin sahələr üzrə bölgüsü belədir: müxtəlif sənaye məhsullarının istehsalı və emalı üzrə 89, kənd təsərrüfatı məhsullarının emalı üzrə 5, kənd təsərrüfatı məhsullarının istehsalı üzrə 2534, xidmət sahələrinin inkişafı üzrə 4. Altı ay ərzində 2582 kiçikhəcmli, 19 ortahəcmli, 31 böyükhəcmli kredit verilib. 2014-cü ilin «Sənaye ili» elan edilməsi ilə əlaqədar bu dövrdə 12 sənaye müəssisəsinə 23,2 milyon manat güzəştli kredit ayrılıb.

**AYTƏN**

aktual

# Sahibkarların maraqları qorunur

***Hörmətli oxucular! Vergi ödəyicilərinə xidmət Baş İdarəsi tərəfindən sahibkarlar üçün daha aktual məsələlər, izahı tələb olunan normativ-hüquqi aktlarla bağlı ən mühüm istiqamətlər üzrə məsləhət səciyyəli materiallar hazırlanmışdır. Məqsəd vergi ödəyicilərini bəzən mahiyyətini bilmədən yol verdikləri qanun pozuntularından qorumaqdır. Bu silsilədən növbəti yazını diqqətinizə çatdırırıq.***

## *Operativ nəzarət: qeydiyyata alınmadan sahibkarlıq fəaliyyəti həyata keçirmək*

Hər hansı şəxsin müstəqil surətdə həyata keçirdiyi, əsas məqsədi gəlir götürülməsi olan fəaliyyət sahibkarlıq fəaliyyəti hesab olunur. Vergi Məcəlləsinin müddəalarına uyğun olaraq şəxs sahibkarlıq fəaliyyətinə başladığı günədək vergi orqanında müvafiq qaydada uçota alınmalıdır. Qeyd edək ki, vergi orqanlarında uçota alınmaq vergi ödəyicisinin öz fəaliyyətini qanunvericiliyin tələbinə uyğun həyata keçirməsi üçün qanunvericiliklə müəyyən olunmuş öhdəliklərindən biridir.

Vergi orqanlarında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərə qarşı qanunvericiliyə əsasən məsuliyyət tədbirləri nəzərdə tutulmuşdur. Qanunun tələblərinə görə, operativ nəzarət tədbirləri zamanı şəxsə sahibkarlıq fəaliyyətinə başladığı günədək vergi orqanında uçota durmadığına görə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq olunur.

Bundan əlavə, vergi ödəyicisi tərəfindən vergi qanunvericiliyinin bir neçə pozuntusuna yol verildikdə, maliyyə sanksiyalarının hər pozuntuya münasibətdə ayrıca tətbiq edildiyini nəzərə alaraq, şəxsin vergi uçotuna durmaması ilə yanaşı, əhali ilə nağd pul hesablaşmalarının nəzarət-kassa aparatı və ya ciddi hesabat blankları tətbiq etmədən aparılması, eləcə də əmək müqaviləsi hüquqi qüvvəyə minmədən işçiləri işlərin görülməsinə cəlb edərək gəlirlərini gizlətdiyi aşkar olunduğu hallarda da vergi ödəyicisinə maliyyə sanksiyaları tətbiq olunur.

# İyul ayında 99 mindən çox avtonəqliyyat vasitəsi icbari sığortaya cəlb olunub

*2014-cü ilin iyul ayında 99307 avtonəqliyyat vasitəsi icbari sığortaya cəlb olunub.*

Onların 21,4 minini Azərbaycan Respublikasına tranzit məqsədilə daxil olan avtonəqliyyat vasitələri təşkil edib. Bir ayda yığılan sığorta haqlarının məbləği isə 7,8 milyon manatı ötüb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə sığorta müqavilələrinin sayında 36,7%, sığorta haqlarının məbləğində 40,85% artım müşahidə edilib.

İcbari Sığorta Bürosundan verilən məlumata görə, cari ilin 7 ayında avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə 515,7 mindən çox sığorta müqaviləsi bağlanılıb. Sığorta haqlarının məbləği isə 38,07 milyon manat olub.

# Azərbaycanın fond bazarı son bir ildə iki dəfə artıb

Ötən əsrin ikinci yarısından etibarən elmi-texniki tərəqqinin təşəkkül tapması ilə qlobal leksikona yeni «fond bazarları» anlayışı daxil oldu. Hazırda inkişaf etmiş ölkələrdə bu termin adi insanların da gündəlik həyatlarına nüfuz etmişdir; ayı-ayrı iqtisadiyyatların inkişafından danışarkən məhz bu anlayışa istinad olunur, qlobal böhranların və ya sıçrayışların meydana gəlməsi bununla əlaqələndirilir.

Azərbaycan fond bazarı yenicə formalaşan və öz inkişafının müxtəlif mərhələlərində fərqli məqsədlərin realizasiyasına hədəflənmiş bir bazardır. Azərbaycanda fond bazarının yaranması, əksər postsosialist ölkələrində olduğu kimi, özəlləşdirmə proseslərinin başlanması ilə üst-üstə düşür.

Azərbaycan fond bazarı kifayət qədər gənc olsa da, mövcud olduğu 11 il ərzində tam funksional infrastruktur yarada bilib. İndi milli fond bazarında dövlət siyasətini həyata keçirən vahid tənzimləyici icra hakimiyyəti orqanı olan Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi, qiymətli kağızların ticarətinin və hesablaşma əməliyyatlarının baş verdiyi Bakı Fond Birjası, qiymətli kağızların qeydiyyatının və uçotunun aparıldığı Milli Depozit Mərkəzi və qiymətli kağızlarla ticarəti bilavasitə təşkil edən broker təşkilatları mövcuddur. Bu təsisatlar bir-biri ilə sıx qarşılıqlı əlaqədə olub, bazarın ümumi inkişafını təmin edir.

2014-cü ilin ilk yarısı ərzində qiymətli kağızlar bazarının bütün seqmentləri üzrə aparılan əməliyyatların sayı və həcmində əhəmiyyətli canlanma müşahidə olunmuş və bazarın həcmi ötən ilin müvafiq göstəricisi ilə müqayisədə 86% artaraq 5,9 milyard manata yüksəlmişdir ki, bu da 2013-cü ilin yekununun 70%-nə bərabərdir.

«Bunun ÜDM-in həcminə və faizinə təsiri hansı səviyyədədir» sualımızı Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi mətbuat xidmətinin rəhbəri Çingiz Hüseynov cavablandırmışdır: «Cari ilin ilk 6 ayında qiymətli kağızlar bazarının həcmi 5,9 milyard manat təşkil etmişdir ki, bu da ölkə üzrə ÜDM-in 21, qeyri-neft ÜDM-in isə 37%-nə bərabərdir.

İlin ilk yarısında korporativ qiymətli kağızlar bazarında həm əqdlərin sayında, həm də əməliyyatların həcmində yüksək templi artım müşahidə olunmuşdur. Korporativ qiymətli kağızlar bazarında əqdlərin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 24%, həcmi isə 3,1 dəfə artaraq 2 milyard manat təşkil etmişdir. Ümumilikdə, 2014-cü ilin birinci yarısında korporativ qiymətli kağızlar sektorunun həcmi 2013-cü ilin yekun həcmini 12,3% üstələmişdir.

2014-cü ilin ilk 6 ayı ərzində korporativ qiymətli kağızlar bazarının səhm seqmentində ticarətin həcmi 2,7 dəfə artaraq 748,9 milyon manat təşkil etmişdir. Real sektor təmsilçilərinin və xüsusi olaraq bankların səhm bazarı vasitəsilə aktiv maliyyələşməsi səhmlərin ilkin bazarını ötən ilin müvafiq dövrü ilə müqayisədə 4,3 dəfə artıraraq 732,7 milyon manata çatdırmışdır. Azərbaycan İpoteka Fondunun (AİF) təminatlı istiqrazlarının təkrar ticarətinin aktivləşməsi fonunda korporativ istiqrazlar bazarı ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,5 dəfə artaraq 1,2 milyard manata yüksəlmişdir. Artım korporativ istiqrazlar bazarının hər 2 seqmentində müşahidə olunr. Yanvar-iyun aylarında ilkin bazarda 826,5 milyon manatlıq, təkrar bazarda isə 375,3 milyon manatlıq istiqraz ticarəti baş tutmuşdur ki, bu da ötən ilin ilk 6 ayı ilə müqayisədə müvafiq olaraq 4,8 və 2,2 dəfə çoxdur. Dövr ərzində korporativ istiqrazlar bazarının ən likvid aləti olan AİF istiqrazlarının ticarəti ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,1 dəfə artaraq 349,5 milyon manat təşkil etmişdir. Bu alətlərin ilkin bazarında 40,2 milyon manat həcmində yerləşdirmə baş tutmuş, təkrar bazarında isə 309,3 milyon manat həcmində əməliyyatlar qeydə alınmışdır ki, bu da ötən ilin ilk 6 ayı ilə müqayisədə müvafiq olaraq 30% və 2,3 dəfə çoxdur.

İlin ilk yarısında dövlət qiymətli kağızlar bazarının həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 55% artaraq 4 milyard manata yüksəlmişdir. Cari ilin mart ayında Maliyyə Nazirliyi tərəfindən xarici bazarlarda ilk dəfə olaraq 1,25 milyard manat həcmində avroistiqrazlar yerləşdirilmişdir. Avroistiqrazlara 160-dan çox ölkənin institusional investorları tərəfindən böyük maraq göstərilmiş və tələbat təklifdən 4 dəfə artıq olmuşdur. Bununla yanaşı, Maliyyə Nazirliyinin istiqrazları ilə yerli bazarda ticarətin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 9% artaraq 60,7 milyon manata çatmışdır. Artım dövlət istiqrazları bazarının hər iki seqmentində müşahidə olunmuşdur. Dövr ərzində 47,9 milyon manatlıq dövlət istiqrazları yerləşdirilmiş, bu alətlərin təkrar bazar ticarəti isə 12,7 milyon manat olmuşdur. Bu, ötən ilin analoji göstəricisindən müvafiq olaraq 3 və 43 faiz çoxdur. 2014-cü ilin ilk 6 ayında Mərkəzi Bankın notları ilə ilkin bazarda ticarətin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 39% azalaraq 109,1 milyon manat təşkil etsə də, bu növ alətlərin təkrar bazar ticarəti 6,9 dəfə artaraq 302,8 milyon manata yüksəlmişdir. Bütövlükdə not bazarında ticarətin həcmi 84% artaraq 411,9 milyon manata çatmışdır. Bununla yanaşı, bu il qiymətli kağızlar bazarında ilk dəfə olaraq yeni növ alətlə - korporativ istiqrazlarla repo/əks-repo əməliyyatları həyata keçirilmiş, bütövlükdə ilin birinci yarısı ərzində baş tutmuş repo/əksrepo əməliyyatlarının həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 53% artaraq 3,5 milyard manat təşkil etmişdir».



Azərbaycanın qiymətli kağızlar bazarında vergi münasibətlərinin tənzimlənməsi ilə bağlı hansı hüquqi sənədlərin hazırlanması nəzərdə tutulur?

Çingiz Hüseynov bildirdi ki, Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 may tarixli Sərəncamı ilə təsdiq edilmiş «2011-2020-ci illərdə Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının inkişafı» Dövlət Proqramında qiymətli kağızlar bazarında əlverişli vergi mühitinin formalaşdırılması üzrə tədbir əks olunmuşdur. «Tədbirin icrası istiqamətində Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən qiymətli kağızlar bazarında vergiqoyma siyasəti təhlil edilmiş, beynəlxalq təcrübə araşdırılmış və qiymətli kağızlar bazarında əlverişli vergi mühitinin formalaşdırılması istiqamətində təkliflər toplusu hazırlanmış, Vergilər Nazirliyinə təqdim olunmuşdur. Hazırda razılaşdırılmış təkliflər toplusunun hüquqi çərçivəsi tamamlanmaq mərhələsindədir».

**Fəxriyyə İKRAMQIZI**

# Əmək müqaviləsi: gələcəyin təminatı

***Azərbaycan Mətbuat Şurası və «Vergilər» qəzetinin təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş «Heydər Əliyev və Azərbaycanda vergi siyasəti» mövzusunda fərdi jurnalist yazıları müsabiqəsi müasir vergi sistemi ilə bağlı yeniliklərin, habelə qarşıda duran əsas hədəflərin cəmiyyətə çatdırılması baxımından mühüm əhəmiyyət daşımışdır. «Heydər Əliyevin iqtisadi inkişaf strategiyasında vergi siyasəti», «Vergi partnyorluğu sazişi»: qarşılıqlı inam və etimad körpüsü», «Əmək müqaviləsi: gələcəyə təminat» istiqamətləri üzrə keçirilmiş müsabiqəyə ümumilikdə 64 yazı təqdim edilmiş, onlardan 9-u əsas mükafata, 10 yazı isə həvəsləndirici yerə layiq görülmüşdür.***

***Müsabiqədə yer tutmuş jurnalistlərin məqalələrini oxucuların diqqətinə təqdim edirik.***

Təqaüdçü Səməndər kişi özü ilə yaşıd olan Qəşəm kişidən niyə 14 manat az pensiya aldığını hər yerdə, xüsusilə çayxanada, demək olar ki, hər gün narazı şəkildə təkrarlayırdı. Deyirdi ki, Qəşəmlə ikisi uzun illər rabitə sahəsində çalışıb, maaşları eyni olub, Sovetlər birliyi dağılandan sonra onların da işi dayanıb, sonralar hər ikisi müxtəlif özəl şirkətlərdə 10-15 il çalışıb, amma pensiya vaxtı gələndə ona Qəşəm kişidən az pensiya kəsiblər. Şikayətlərinə müvafiq qurumların, o cümlədən rayon Sosial Müdafiə Mərkəzi mütəxəssislərinin cavabı onu qane etmirdi. Cavab bu idi ki, Səməndər kişinin işlədiyi sonuncu özəl şirkət onun 7 illik fəaliyyətini nəzərə almayıb, şirkət onu əmək müqaviləsi imzalamadan işlədib. Amma Qəşəm kişi ağıllı tərpənib, əmək müqaviləsi imzalayıb və bütün əmək fəaliyyəti onun stajında nəzərə alınıb, ona görə də pensiyası artıqdır.

İndi Səməndər kişi başına gələnləri oğullarına danışaraq hər gün onlardan çalışdıqları şirkətlə əmək müqaviləsi bağlayıb-bağlamadıqlarını israrla soruşur. Nəqliyyat müəssisələrinin birində çalışan kiçik oğlu həyətdə saxladığı avtomobilin üzərindəki əmək müqaviləsinin imzalanmasını təbliğ edən reklam lövhəsini göstərərək əvvəlki dövrlə müqayisədə hazırda vəziyyətin xeyli dəyişdiyini bildirir. Deyir ki, iş axtaranlar öncə onunla əmək müqaviləsinin imzalanıb-imzalanmayacağını soruşurlar. Onu da deyir ki, tez-tez müəssisəyə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Vergilər Nazirliyinin əməkdaşları gələrək işçilərə işlədikləri müəssisələrdə əmək müqaviləsi bağlamağın əhəmiyyətini təbliğ edir, əmək müqaviləsi olmadığı halda onları gələcəkdə gözləyən sosial problemləri dərk etməyə səsləyirlər.

***Göstəricilər nikbin gələcəkdən xəbər verir...***

Aparılan tədbirlər, həqiqətən, öz bəhrəsini verir. Dövlətin vətəndaşların güclü sosial təminat sistemi və sosial hüquqlarının daha etibarlı şəkildə qorunması barədə təbliğatı hərtərəfli şəkildə faydasını göstərir. Dövlət Əmək Müfəttişliyi Xidmətinin (DƏMX) rəis müavini Məhərrəm Məhərovun qeyd etdiyinə görə, aparılan tədbirlər əmək bazarında ciddi canlanma və fəallığa səbəb olub. Əhalinin məşğulluq səviyyəsi 95%-ə çatıb. Ölkədə işsizlik səviyyəsi 5% təkşil edir. İqtisadi fəallıq səviyyəsi 77%-dir.

Amma məsələ ondadır ki, aparılan tədbirlərə baxmayaraq, əmək bazarında problemlər qalmaqdadır. Bəzi sahibkarlar yenə də sosial ödənişlərdən və vergilərdən yayınmaq məqsədilə işçilərlə əmək müqavilələri bağlamır, iş yerləri rəsmiləşdirilmədən onlara işlərin görülməsini həvalə edirlər. Bundan başqa, iqtisadiyyatın ayrı-ayrı sektorlarında çalışan vergi ödəyicilərinin muzdlu işlə əlaqədar təqdim etdikləri vergi bəyannamələrindəki əməkhaqqı məbləğləri təsərrüfat subyektinin real potensialı, eləcə də həmin sektor üzrə fəaliyyət göstərən və əməkhaqlarının düzgün müəyyən edilməsinə üstünlük verən vergi ödəyicilərinin əməkhaqqı məbləği göstəriciləri ilə uzlaşmır və bəzən onlardan bir neçə dəfə aşağı olur.

***Vergi orqanları tərəfindən əmək müqaviləsi ilə bağlı məlumat e-bazaya daxil edilir***

Vergilər Nazirliyi tərəfindən muzdlu işlə əlaqədar əməkhaqqından tutulan gəlir vergisi üzrə vergitutma bazasının və qeyri-leqal məşğulluğun leqallaşdırılması istiqamətində kompleks tədbirlər həyata keçirilir. Nazirliyin audit və operativ nəzarət sahələri üzrə müşavir xidməti şöbəsinin bölmə rəisi Vüsal Məmmədovun sözlərinə görə, əmək münasibətləri ilə bağlı problemlər 3 əsas qrupa bölünür. Birinci qrup problem vergi ödəyicilərinin bir qisminin əmək münasibətlərini rəsmiləşdirmədən işçiləri ayrı-ayrı işlərə cəlb etməsi ilə bağlıdır. Bu, daha çox ticarət və xidmət sektorunda müşahidə olunan haldır. İkinci qrupa daxil olan ödəyicilərdə müşahidə olunan əsas problem işçilərin bir qismi ilə əmək



müqaviləsinin bağlanması, əksəriyyət təşkil edən digər qismi ilə isə rəsmiləşdirilmənin aparılmamasıdır. Bu, əsasən, inşaat-tikinti və istehsal sektorunda çalışan vergi ödəyicilərində rast gəlinən tipik haldır. Vergi orqanlarının nəzarət əhatəsinə düşən üçüncü qrup problem bundan ibarətdir ki, iş yerlərini rəsmiləşdirən əksər vergi ödəyiciləri ikili mühasibatlıq apararaq əməkhaqlarını real göstərmir, vergilərin və sosial ayırmaların ödənilməsindən yayınırlar. Sonuncu hal, demək olar ki, vergi nəzarəti tədbirlərinin aparıldığı əksər təsərrüfat subyektlərində müşahidə olunur.

Vergilər Nazirliyi əmək münasibətlərinə vergi nəzarəti sahəsində yerli vergi orqanları tərəfindən həyata keçirilən tədbirlərin düzgün uçotunun aparılması məqsədilə bütün obyektlərdə vergi nəzarəti tədbirlərini gücləndirib.

***Əmək müqaviləsi bildirişi nəyi dəyişəcək?***

Milli Məclisin Sosial siyasət komitəsinin sədri Hadi Rəcəblinin sözlərinə görə, əmək bazarına nəzarəti gücləndirmək məqsədilə 2014-cü ildən Əmək Məcəlləsinə edilmiş son dəyişikliklər mühüm əhəmiyyət kəsb edir. «Məcəlləyə edilmiş əsas dəyişikliklərdən biri əmək qanunvericiliyinə əmək müqaviləsi bildirişi anlayışının daxil edilməsidir. Əmək müqaviləsi bildirişi - əmək müqaviləsinin bağlanılmasının, ona dəyişiklik edilməsinin və ya xitam verilməsinin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sistemində elektron qaydada qeydiyyata alınması məqsədilə işəgötürən tərəfindən həmin elektron informasiya sisteminə daxil edilən elektron sənəddir. Əmək Məcəlləsinin 49-cu maddəsinə edilmiş dəyişikliyə əsasən, əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi bununla bağlı elektron informasiya sisteminə daxil edilmiş əmək müqaviləsi bildirişinin həmin elektron informasiya sistemində qeydiyyata alınmasından və bu barədə işəgötürənə elektron qaydada məlumat göndərilməsindən sonra hüquqi qüvvəyə minir». Ekspert bildirir ki, bu dəyişikliklərdən sonra təşkilati-hüquqi formasından və mülkiyyət növündən asılı olmayaraq, bütün işəgötürənlər əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi ilə bağlı elektron informasiya sistemində əmək müqaviləsi bildirişini qeydiyyatdan keçirməlidirlər. Elektron informasiya sistemində daxil edilmiş əmək müqaviləsi bildirişinin qeydiyyata alınması barədə bir iş günündən gec olmayaraq sistem vasitəsilə işəgötürənə elektron qaydada məlumat göndərilməsi nəzərdə tutulub. Beləliklə, əmək müqaviləsi bildirişləri işçilər üçün əmək hüquqlarının qorunmasına təminat verir, onlara işəgötürəndən öz hüquqlarının icrasını tələb etmək imkanı yaradır.

***Əmək bazarı ilə bağlı yeni üçillik plan***

ƏƏSMN-in məşğulluq siyasəti və əmək bazarının tənzimlənməsi şöbəsinin müdiri Vahab Məmmədovun sözlərinə görə, qarşıdakı 3 il ərzində əmək bazarının canlandırılması məqsədilə bir sıra tədbirlər həyata keçirmək qarşıya məqsəd qoyulub. 2014-2017-ci illərdə əmək bazarında həyata keçirilməsi nəzərdə tutulan tədbirlər regionlarda iqtisadi fəallığın yüksəldilməsi, təklif olunan işçi qüvvəsi ilə mövcud iş yerlərinin sayı arasında tarazlığı təmin edən şəraitin yaradılması, qeyri-formal məşğulluğun qarşısının alınması, işə düzəlməkdə çətinlik çəkən vətəndaşların məşğulluğunun təmin edilməsi, sahibkarlığın, kiçik və orta biznesin inkişafının, eləcə də fərdi əmək fəaliyyəti ilə məşğul olanların iqtisadi həvəsləndirilməsinin reallaşdırılmasından ibarət olacaq.

Əmək bazarına nəzarət sisteminin gücləndirilməsi məqsədilə qarşıdakı illərdə milli informasiya sistemi yaradılacaq, əmək bazarında yaranan vəziyyətin monitorinqi və təhlili sistemi qurulacaq, qeyri-formal məşğulluğun qarşısının alınması üzrə ciddi tədbirlər görüləcəkdir. Strategiyaya ölkədə aparılan iqtisadi islahatlar çərçivəsində məşğulluq və əmək bazarı sahəsində siyasətin təkmilləşdirilməsi əsasında əhalinin məşğulluğunun inkişafına təsir edən investisiya mühitinin yaradılmasına, vergi, gömrük, təhsil və digər müvafiq sahələrlə bağlı siyasətin təkmilləşdirilməsinə, yeni iş yerlərinin açılmasını stimullaşdıran institusional mühitin formalaşmasına yönəldilən siyasi prioritetlərin müəyyən edilməsi daxildir.

***İşləyən hər kəs əmək müqaviləsi bağlamalıdır***

Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının sədri Sahib Məmmədov hesab edir ki, əmək bazarı cəmiyyətin bütün üzvlərinin həyatını əhatə etdiyindən bu məsələdə hamı fəal olmalı, bu sahə ilə bağlı məlumatı az olan insanları maarifləndirilməlidir. Xüsusilə də ictimai təşkilatlar fəaliyyətini bu sahəyə yönəltməlidir: «Əmək müqavilələri ilə bağlı problemlər cəmiyyətin bütün üzvləri, o cümlədən qeyri-hökumət təşkilatları (QHT) qarşısında bir sıra vəzifələr qoyur. Ona görə də QHT-lərin bu prosesə cəlb olunması olduqca vacibdir. Əmək münasibətlərinə dair vəziyyətin öyrənilməsi, qanunvericilikdə işçilərin hüquqları, Əmək Məcəlləsinə dəyişikliklər və burada əmək hüquqlarının qorunmasının gücləndirilməsinə dair yeni müddəalar və digər məsələlər barədə vətəndaşlarda kifayət qədər biliklər yoxdur. Onlar əmək müqavilələrinin bağlanmasının hansı əhəmiyyət daşıması haqqında belə zəruri məlumatlara malik deyillər. Təbliğat-maarifləndirmə işi kifayət qədər gücləndirilməlidir».

**Fazil İSMAYILOV,**
***«Mübariz» qəzeti***

# Borclu vergi ödəyiciləri

Azərbaycan Respublikası Konstitusiyasının 73-cü maddəsinin 1-ci bəndinə əsasən, qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər kəsin borcudur. Vergi Məcəlləsinin 16.1.1-ci maddəsində isə qeyd olunub ki, qanunla müəyyən edilmiş vergiləri ödəmək vergi ödəyicisinin vəzifəsidir. Məcəllənin 77-ci maddəsinin müddəalarına görə, vergi ödəyicisi vergi qanunvericiliyinin tələblərinə uyğun olaraq verginin ödənilməsini nəzərdə tutan şəraitin yarandığı andan vergi öhdəliklərinin yerinə yetirilməsi üçün cavabdehdir və vergi öhdəliyinin yaranması, dəyişdirilməsi və ya ləğv edilməsi qaydası və şərtləri yalnız Vergi Məcəlləsi ilə müəyyən edilir.

Vergilər Nazirliyinin apardığı təhlillər göstərir ki, borclu vergi ödəyicilərinin çoxu müxtəlif səbəblərdən yaranmış vergi borclarını mümkün qədər qısa müddət ərzində ödəməyə çalışır və əsasən, buna nail olur. Lakin vergi borclarını ödəmək üçün real imkanları olan bəzi vergi ödəyiciləri qanunvericiliyin tələblərini pozur, hesablanmış vergiləri nəzərdə tutulmuş müddətlərdə dövlət büdcəsinə ödəmir.

Bununla əlaqədar olaraq ayrı-ayrı vergi orqanları üzrə borclarını 2 aydan artıq müddətdə ödəməyən, lakin buna real imkanı olan vergi ödəyicilərinin siyahısının mütəmadi qaydada «Vergilər» qəzetində dərc edilməsi, habelə həmin siyahıların vergi orqanları və vergi ödəyicilərinə xidmət mərkəzlərində yerləşdirilməsi nəzərdə tutulub. Qəzetimizin bu sayında 9 saylı Ərazi Vergilər İdarəsində qeydiyyatdan keçən və vergi borclarını ödəmək iqtidarında olan borclu vergi ödəyicilərinin siyahısı dərc olunur.

| № | Vergi ödəyicisinin adı | Vergi ödəyicisinin qeydiyyatda olduğu rayon |
|---|---|---|
| 1 | XUDİYEV SƏXAVƏT MƏHƏMMƏD OĞLU | GÖYÇAY RAYONU |
| 2 | 743 SAYLI APTEK | UCAR RAYONU |
| 3 | BƏKİROV MÜBARİZ TAHİR OĞLU | KÜRDƏMİR RAYONU |
| 4 | SƏÇ TİCARƏT MƏRKƏZİ MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ | UCAR RAYONU |
| 5 | 79 SAYLI APTEK | AĞDAŞ RAYONU |
| 6 | NƏSİROVA RANƏ HACIBABA QIZI | AĞDAŞ RAYONU |
| 7 | ƏLİYEV CƏMİL TEYYUB OĞLU | KÜRDƏMİR RAYONU |
| 8 | ŞİRİNOV CAVAD KAMİL OĞLU | AĞDAŞ RAYONU |
| 9 | NƏZƏROV VİDADİ ŞAKİR OĞLU | GÖYÇAY RAYONU |
| 10 | BAĞIROVA ELNARƏ NƏRİMAN QIZI | AĞDAŞ RAYONU |

## vergi taqvimi

**AVQUST**

| I | II | III | IV | V | VI | VII |
|---|---|---|---|---|---|---|
| | | | | 1 | 2 | **3** |
| 4 | 5 | 6 | 7 | 8 | 9 | **10** |
| 11 | 12 | 13 | 14 | **15** | 16 | **17** |
| 18 | 19 | **20** | 21 | 22 | 23 | **24** |
| 25 | 26 | 27 | 28 | 29 | 30 | **31** |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

15 avqust - «5», «(5)» və «6».
20 avqust - «(1-1)», «3», «4», «8», «10.1», «10.2» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.
Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.
**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.
**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.
**«5» - Əmlak vergisi:** Fiziki şəxslər avqust ayının 15-dən gec olmayaraq illik əmlak vergisinin yarısını yerli (bələdiyyə) büdcəyə ödəyirlər.
**«(5)» - Əmlak vergisi:** Əmlak vergisi üzrə hesabat dövrü təqvim ilidir. Əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin 20 faizi həcmində dövlət büdcəsinə vergi ödəyirlər. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonra hər rüb ikinci ayın 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.
**«6» - Torpaq vergisi:** Torpaq vergisi üzrə hesabat dövrü təqvim ilidir. Avqust ayının 15-dən gec olmayaraq illik torpaq vergisinin yarısını hüquqi şəxslər dövlət büdcəsinə, fiziki şəxslər isə yerli (bələdiyyə) büdcəyə ödəyirlər.
**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verir. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.
**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.
**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.
**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.




# Beynəlxalq uçotun aparılmasında tətbiq olunan qaydalar

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

5-ci MƏRHƏLƏ *(davamı)*

***Maliyyə hesabatlarının hazırlanması.***

Hörmətli oxucular, qəzetin əvvəlki saylarında dərc olunan bizim misal üzrə maliyyə hesabatları «Qeydlər» əks etdirilmədən göstərilmişdir. İndi isə «Qeydlər» (qeydlərin nömrələri) əks etdirilməklə maliyyə hesabatları aşağıdakı kimi təqdim ediləcəkdir (bizim misal üzrə aşağıda verilən maliyyə hesabatlarının hər hansı istifadə olunmayan sətirləri göstərilməmişdir):

**PƏRAKƏNDƏ TİCARƏT OBYEKTİ**
**Mühasibat balansı**
**31 yanvar 2014-cü il tarixinə**

| Bölümün, maddənin №-si | Göstəricilər | Qeydlər | 31.01.2014 | 31.12.2013 |
|---|---|---|---|---|
| | AKTİVLƏR | | | |
| 1 | **Uzunmüddətli aktivlər** | | | |
| 11 | Torpaq, tikili və avadanlıqlar | 1 | 72500 | 20000 |
| | **Cəmi uzunmüddətli aktivlər** | | **72500** | **20000** |
| 2 | **Qısamüddətli aktivlər** | | | |
| 20 | Ehtiyatlar | 2 | 145650 | 34000 |
| 21 | Qısamüddətli debitor borcları | 3 | 103400 | 40000 |
| 22 | Pul vəsaitləri və onların ekvivalentləri | 4 | 88780 | 27000 |
| | **Cəmi qısamüddətli aktivlər** | | **337830** | **101000** |
| | **Cəmi aktivlər** | | **410330** | **121000** |
| | KAPİTAL VƏ ÖHDƏLİKLƏR | | | |
| 3 | **Kapital** | | | |
| 30 | Ödənilmiş nominal (nizamnamə) kapitalı | 5 | 70000 | 40000 |
| 34 | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 6 | 37376 | |
| | **Cəmi kapital** | | **107376** | **40000** |
| 5 | **Qısamüddətli öhdəliklər** | | | |
| 50 | Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | 7 | 80000 | |
| 52 | Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 8 | 12444 | 400 |
| 53 | Qısamüddətli kreditor borcları | 9 | 210510 | 80600 |
| | **Cəmi qısamüddətli öhdəliklər** | | **302954** | **81000** |
| | **Cəmi öhdəliklər** | | **302954** | **81000** |
| | **Cəmi kapital və öhdəliklər** | | **410330** | **121000** |

**PƏRAKƏNDƏ TİCARƏT OBYEKTİ**
**Mənfəət və zərər haqqında hesabat**
**31 yanvar 2014-cü il tarixinə**

(manatla)

| Bölümün, maddənin №-si | Göstəricilər | Qeydlər | 31.01.2014 | 31.12.2013 |
|---|---|---|---|---|
| 60 | Əsas əməliyyat gəliri | 10 | 383400 | - |
| 70 | Satışın maya dəyəri | 11 | (273350) | - |
| | **Ümumi mənfəət** | | **110050** | - |
| 71 | Kommersiya xərcləri | 12 | (35560) | - |
| 72 | İnzibati xərclər | 13 | (15110) | - |
| | **Əməliyyat mənfəəti (zərəri)** | | **59380** | - |
| 63 və 75 | Maliyyə mənfəəti (zərəri) | 14 | (12660) | - |
| | **Vergiqoymadan əvvəl mənfəət (zərər)** | | **46720** | - |
| 90 | Mənfəət vergisi | 15 | 9344 | - |
| 80 | **Hesabat dövrünün xalis mənfəəti (zərəri)** | | **37376** | - |

**PƏRAKƏNDƏ TİCARƏT OBYEKTİ**
**Kapitalda dəyişikliklər haqqında hesabat**
**31 yanvar 2014-cü il tarixinə**

| Göstəricilər | Qeydlərə istinad | Ödənilmiş nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | CƏMİ |
|---|---|---|---|---|
| 01.01.2014-cü il tarixinə qalıq | 5 | 40000 | | 40000 |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 6 | | 37376 | 37376 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | 5 | 30000 | | 30000 |
| 31.12.2014-cü il tarixinə qalıq | 5,6 | 70000 | 37376 | 107376 |

**PƏRAKƏNDƏ TİCARƏT OBYEKTİ**
**Pul vəsaitlərinin hərəkəti haqqında hesabat**
**31 yanvar 2014-cü il tarixinə**

| Göstəricilər | Qeydlər | 31.01.2014 | 31.12.2013 |
|---|---|---|---|
| I. Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti | | | |
| Hesabat dövründə xalis mənfəət və ya zərər | 6 | 37376 | - |
| Mənfəət vergisi üzrə xərclər | 15 | 9344 | - |
| Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər | 16 | 22500 | - |
| Ehtiyatların (artması) azalması | 17 | (111650) | - |
| Əməliyyat debitor borcları və gələcək dövrlərin xərclərinin (artması) azalması | 18 | (63400) | - |
| Əməliyyat kreditor borcları və hesablaşmaların artması (azalması) | 19 | 132810 | - |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **26780** | - |
| II. İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti | | | |
| Komisyon yığımları və ödənilmiş digər oxşar məbləğlər daxil olmaqla uzunmüddətli qeyri-maliyyə aktivlərinin əldə edilməsi üçün, eləcə də uzunmüddətli qeyri-maliyyə aktivlərinə aid edilən kapitallaşdırılmayan məsrəfləri ilə əlaqədar pul vəsaitlərinin xaricolmaları | 20 | (75000) | - |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **(75000)** | - |
| III. Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti | | | |
| Səhmlərin və digər oxşar alətlərin buraxılması nəticəsində yaranan pul vəsaitlərinin daxilolmaları | 21 | 30000 | - |
| Borc şəklində alınmış məbləğlərdən yaranan pul vəsaitlərinin daxilolmaları | 22 | 80000 | - |
| **Maliyyələşdirmə üzrə fəaliyyətlərlə əlaqədar fövqəladə xaricolmalar və daxilolmalar** | | **110000** | - |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | | **61780** | - |

**Pul vəsaitləri və onların ekvivalentlərinin hərəkəti**

| Pul vəsaitləri və onların ekvivalentlərinin hərəkəti | Qeydlər | 31.01.2014 | 31.12.2013 |
|---|---|---|---|
| **Bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə olan məbləği** | 4 | **27000** | - |
| İl ərzində xarici valyutaların məzənnələrinin dəyişməsinin təsiri | | 0 | - |
| **Bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna olan məbləği** | 4 | **88780** | - |

Davamı növbəti sayımızda

beynəlxalq panoram

## Piylənmə ilə mübarizə aparmaq üçün...



*Böyük Britaniya şəkər tərkibli qazlı içkilərə vergi tətbiq edə və onların reklamına qadağa qoya bilər. Ölkə rəsmiləri piylənmə problemi ilə mübarizə aparmaq üçün tədbirlər planını nəzərdən keçirirlər.*

Britaniyadakı «Şəkər əleyhinə hərəkat» uşaqlarda piylənmənin qarşısını almaq üçün «şəkər vergisi» tətbiq edilməsi tələbilə hökumətə müraciət edib. Müraciətdə, həmçinin, 2020-ci ilə qədər ölkədə istehsal olunan ərzaq məhsullarının tərkibində şəkərin 40, yağın isə 15 faizə qədər azaldılması istiqamətində tədbirlər görülməsi tələbi irəli sürülüb.

«Şəkər əleyhinə hərəkat» təşkilatı şəkər və onun orqanizmə təsirini öyrənən mütəxəssisləri birləşdirir. Onlar təsdiq edirlər ki, Britaniyada 10-11 yaşlı hər beşinci uşaq piylənmədən, hər üçüncü uşaq isə artıq çəkidən əziyyət çəkir. Səhiyyə naziri Ceremi Hantanın xahişi ilə mütəxəssislər Böyük Britaniya hökuməti üçün fəaliyyət planı hazırlayıb və konkret tədbirlər təklif ediblər.

Ərzaq məhsullarında şəkərin miqdarının azaldılması ilə yanaşı, təşkilat orqanizm üçün ziyanlı olan ərzaq məhsulları, yarımfabrikatlar və spirtsiz içkilərin istənilən formada reklamına qadağa qoyulmasını tələb edir. Təşkilat üzvləri qeyri-sağlam qida istehsalçılarının idman tədbirlərinə sponsorluq etmələrinə qadağa qoyulmasını da istəyirlər. Yarımfabrikatların və şəkər tərkibli spirtsiz içkilərin satışına məhdudiyyətlər qoyulmasını tələb edir: bütün bunlar cəmiyyətdə sağlam qidaya maraq oyatmağa xidmət edəcək.

Qazlı içkilərdə şəkərə vergi tətbiq edilməsi kimi tədbirlər, böyük ehtimalla, hökumət və qida sənayesinin nümayəndələri arasında fikir ayrılığına gətirib çıxaracaq. Böyük Britaniyanın Spirtsiz İçki İstehsalçıları Assosiasiyası bəyan edib ki, ölkə vətəndaşlarının orta gündəlik rasionunda belə içkilərin payına ümumi istehlak olunan ərzağın yalnız 3%-i düşür.

## Depozit vergisi tətbiq ediləcək

*İspaniyada bank depozitləri 0,03% dərəcəsi ilə mərkəzləşdirilmiş qaydada vergiyə cəlb ediləcək. Vergidən əldə ediləcək 375 milyon avroya yaxın vəsaitin yarısı İspaniyanın əyalət orqanları arasında paylanılacaq.*

2013-cü ildə hökumət vergilərin birtərəfli tətbiqinin qarşısını almaq məqsədilə İspaniyanın bütün muxtar bölgələrində bank depozitləri üzrə vergilərə sıfır dərəcə müəyyənləşdirmişdi. Maliyyə Nazirliyi regional hakimiyyət orqanları tərəfindən bank depoziti üzrə yüksək vergi dərəcələrinin tətbiq edilməsinin bank sektorunda qeyri-sabitlik yarada biləcəyindən narahatlıq keçirdiyindən bu addımı atmışdı.

Artıq İspaniya hökuməti regional bank depoziti üzrə vergiləri ləğv etdiyi üçün Əndəlis, Estremadura və Kanar adalarına mərkəzi büdcədən maliyyə yardımı ayırıb.

## Dividendlərdən yeni vergi tutulur



*Ukraynada vətəndaşların «passiv gəlir»lərinə proqressiv şkalalı vergi tətbiq edilib. Söhbət dividendlər, faizlər, royalti və investisiya gəlirlərindən gedir.*

Əmanətçilər depozitlərinə görə faizlərin alınması zamanı özləri heç bir vergi ödəməyəcəklər. Ali Radanın qəbul etdiyi qanuna əsasən, fiziki şəxslərin passiv gəlirlərinə 15%-lik vergi banklar tərəfindən ödəniləcək. Toplanmış vəsait Ukraynanın dövlət büdcəsinə daxil olacaq. Həmçinin əmanətçilər gəlirləri barədə bəyannamə verməyə borclu deyillər. Əmanətçilərin soyadları vergi xidmətinin siyahısına düşməyəcək. 2014-cü ilin avqustundan banklar əmanətlər üzrə kommersiya sirrini açmadan hesablanmış vergiləri tutaraq dövlət büdcəsinə ödəyirlər.

Vergi Beynəlxalq Valyuta Fondunun tövsiyələri əsasında qəbul edilib. Fond Ukraynaya 17 milyard dollar həcmində kredit xətti açıb. Bu, büdcənin artırılması üçün həyata keçirilən addımlardan biridir.

Xarici ölkələrin təcrübəsi:

# Latviya Respublikasının vergi sistemi: *fiziki şəxslərin gəlir vergisi*

Latviya rezidentləri və gəliri Latviya mənbəyindən olan qeyri-rezidentlər ölkə səviyyəsində gəlir vergisi ödəyirlər. Ortaqlıqların tərəfləri vergitutma məqsədləri üçün ayrı şəxslər hesab edilir. Ortaqlığın gəlirləri yalnız ortaqların əlində vergiyə cəlb edilir.

Fiziki şəxs aşağıdakı şərtlər altında vergitutma məqsədləri üçün Latviya rezidenti hesab edilir:

- daimi yaşayış yeri Latviyada yerləşirsə;
- vergi ili ilə üst-üstə düşən və ya vergi ilində bitən istənilən 12 aylıq dövr ərzində 183 gün və daha artıq Latviya ərazisində olmuşdursa (bu şərtlə Latviya rezidenti olan fiziki şəxs Latviyaya daxil olduğu gündən vergi məsuliyyəti daşıyır);
- Xaricdə Latviya dövlətinin xidmətində olan Latviya vətəndaşı.

Fiziki şəxslərin gəlir vergisi məcmu gəlirdən (sahibkarlıq fəaliyyətindən gəlir də daxil olmaqla) ümumi 24% dərəcə ilə tutulur. İnvestisiya gəliri (kapital artımı olmayan kapital gəlirləri) növündən asılı olaraq 10% və ya 24% dərəcə ilə vergiyə cəlb edilir. Vergiyə cəlb edilməli olan kapital artımından, adətən, 15% dərəcə vergi tutulur.

Rezident və qeyri-rezident fiziki şəxslərin muzdlu işdən gəliri ödəmə mənbəyində 24% dərəcə ilə vergiyə cəlb edilir.

Dividend və faizlərdən ödəmə mənbəyində 10% dərəcə ilə yekun vergi tutulur.

Rezidentlərə ödənilən royaltilər ödəmə mənbəyində 24% dərəcə ilə vergiyə cəlb edilir.

Latviyada fiziki şəxslərin gəlir vergisi aşağıdakı formalarda tutulur:

- ödəmə mənbəyində əməkhaqqıdan və muzdlu işdən əldə edilən digər gəlirlərdən vergi (əməkhaqqı vergisi);
- dividend və faizlər daxil olmaqla, kapitaldan ödəmə mənbəyində tutulan vergi;
- sahibkarlıq fəaliyyətindən mənfəət vergisinə cəlb edilməyən gəlirdən vergi;
- əmlak və digər vergi mənbələrindən vergi;
- bəzi kiçik ticarətçilərdən standart gəlir vergisi əvəzinə tutulan elektiv «lisenziya rüsumu» (patentmaksa);
- mikromüəssisələrdən, onun işçilərindən və səhmdarlarından ümumi gəlir vergisi əvəzinə tutulan mikromüəssisə vergisi.

Fiziki şəxsin vergiyə cəlb edilən gəliri kassa metodu ilə hesablanır. Yəni gəlir və xərclər müvafiq olaraq faktiki əldə edildiyi və ödənildiyi vergi ilində nəzərə alınır. Fərdi sahibkar kimi qeydiyyata alınmış fiziki şəxslər dövriyyələri 200 min Latviya latından (≈ 394 min ABŞ dolları) artıq olduğu halda məcburi qaydada hesablama metodunu tətbiq etməlidirlər.

Daşınan əmlakın icarəsindən gəlir də vergiyə cəlb edilən gəlir hesab edilir. Sahibi tərəfindən istifadə edilən yaşayış yerinin icarə dəyəri isə vergiyə cəlb edilmir.

2011-ci il yanvarın 1-dən «vergiyə cəlb edilməyən minimum məbləğ» güzəşti mövcuddur. Bu güzəştin həcmi aylıq 45 Latviya latı (≈ 89 ABŞ dolları) təşkil edir. Əsasən, uşaqlara və işləməyən həyat yoldaşlarına görə himayədə olanlar güzəşti də tətbiq edilir ki, bu da himayədə olan hər bir şəxsə görə aylıq 80 Latviya latı (≈ 158 ABŞ dolları) təşkil edir.




## Faktlar toplusu

- Latviya Daxili Gəlirlər Xidməti tərkibində Maliyyə Polisi İdarəsi mövcuddur. Dövlət Gəlirlər Xidməti haqqında Qanuna əsasən, bu idarəyə dövlət gəlirləri sahəsində və DGX vəzifəli şəxslərinin əməllərində cinayətlərin aşkar edilməsi və qarşısının alınması məqsədilə qanuni əməliyyat tədbirlərinin keçirilməsi, habelə aşkar edilmiş cinayətlərin istintaqının həyata keçirilməsi vəzifələri tapşırılmışdır.
- Ölkədə rəqabətqabiliyyətliyi artırmaq və inflyasiya təzyiqini azaltmaq məqsədilə, həmçinin digər Baltikyanı ölkələrdə tətbiq edilən dərəcələrə yaxınlaşmaq məqsədilə 1 iyul 2012-ci il tarixdən ƏDV-nin standart dərəcəsi 22%-dən 21%-ə endirilmişdir.
- Latviya 2004-cü ildən NATO-nun və Avropa İttifaqının üzvüdür. 2007-ci ildə Şengen zonasına, 1 yanvar 2014-cü il tarixdən etibarən Avrozonaya qoşulmuşdur.

*Rubrika Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin dəstəyi ilə hazırlanır*

krossvord



**Yuxarıdan aşağı:**

1.Üstü şokoladlı dondurma; 2.Ali məktəblərdə tələbələr üçün xüsusi fənn və ya mövzu üzrə keçilən qrup məşğələsi; 3.İçlikli biskvit məhsulu; 4.Əntərlər yarımfəsiləsindən meymun; 5.İndiki Meksikanın cənub və Mərkəzi Amerikanın şimal ərazilərində mövcud olmuş sivilizasiya; 6.Gündüzlər yatıb, gecələr ov edən, sıçana oxşar geniş pərdəqanadlı məməli heyvan; 9.Gərəksiz şey; 13.Natrium hidrokarbonatın ($NaHCO_3$) məişətdə adı; 15.Yaddaşa malik olan rəqəmli qurğu. Uzun müddət ərzində iki mümkün dayanıqlı tarazlıq vəziyyətindən birində ola və xarici idarəedici siqnalın təsiri ilə sıçrayışla bir vəziyyətdən digərinə keçə bilir. Bir tarazlıq halından digərinə keçid zamanı cərəyan və gərginliklər də sıçrayışla dəyişir; 16.Manna dövlətinin dördüncü hökmdarı; 17.Simli musiqi aləti; 18.Aktyorun fərqli xüsusiyyətlərinə görə ifa etdiyi müəyyən rollar dairəsi; 20.Mixəyi rəngdə piqment; 21.Rəsmən müəyyən edilmiş ödəniş, rüsum.

**Soldan sağa:**

1.Özündə maksimum və minimum anlayışlarını birləşdirən termin; 5.Aylardan biri; 7.Vəhdət təşkil edən şeylərin və ya hadisələrin məcmusu; 8.Barama, pambıq və s. bu kimi xam mallardan əldə edilən xalis malın miqdarı; 10.Bir sıra ölkələrdə pul vahidi; 11.Böhran nəticəsində hər hansı strukturun dağılması; 12.Dərə-təpəli yerdə maneələri aşmaqla idman qaçışı; 14.Estrada üçün yazılmış kiçik məzhəkə (zarafat); 19.Avtomobil markası; 21.Allahın fövqəltəbii varlıq kimi bütün maddi və mənəvi proseslərə təsir göstərməsini qəbul edən dini, fəlsəfi təlim; 22.Dünya bəşər irsi siyahısına daxil olmuş və əsasən, Almaniya ərazisindən keçən çay; 23.Qadına həsr olunmuş sevgi mövzusunda şeir; 24.Sibirdə çay; 25.Hər hansı partiya və qrupun fəaliyyət proqramı, məramı, siyasi tələbləri.

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Mənsur *(Mənsurov)*; 2.Novella; 3.Erkəç; 4.İmişli; 5.Mazut; 6.Tamara *(Gözəlova)*; 9.İkva; 13.Oyun; 15.Tamilla *(Rüstəmova)*; 16.Effekt; 17.Qalife; 18.Krizis; 20.Rulon; 21.Turne.

**Soldan sağa:** 1.Manyerizm; 5.Mat; 7.Novokain; 8.Üzüm; 10.Uqliç; 11.Lokator; 12.Kanoe; 14.Haiti; 19.Fortuna; 21.Tembr; 22.Esla; 23.Hidroliz; 24.Ton; 25.Preferans.


Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 14200

idman

# Gənc güləşçilərimizin böyük uğuru




Xorvatiyanın Zaqreb şəhərində gənclər arasında keçirilən dünya çempionatında yunan-Roma güləşi üzrə yığma komandamız uğurla çıxış edərək 5 qızıl və 1 gümüş medal qazanıb. Təmsilçilərimizdən Elman Muxtarov, Orxan Nuriyev, İbrahim Nurullayev, Murad Məmmədov və İslam Abbasov qızıl, Ruhin Mikayılov isə gümüş medal qazanıb. Yunan-Roma güləşi üzrə Azərbaycan millisinin böyük məşqçisi Şaban Donat idmançılarımızın qazandıqları uğurları tarixi hadisə adlandırıb, bu nailiyyətin ölkəmizdə idmana göstərilən diqqət və qayğının təzahürü olduğunu bildirib. Mütəxəssis, həmçinin, güləşçilər üçün yaradılan yüksək səviyyəli şəraitə görə Azərbaycan Güləş Federasiyasının rəhbərliyinə təşəkkürünü bildirib, bu cür qələbələrin ardının gələcəyini deyib.

Qeyd edək ki, 5 qızıl və 1 gümüş medalla yekunda 59 xal toplayan yığmamız komanda hesabında da dünya çempionatını ilk sırada tamamlayıb. İkinci yeri Gürcüstan, üçüncü yeri Türkiyə komandaları tutub.

Sərbəst güləş yarışlarında gənc güləşçilərimiz iki gümüş və bir bürünc medal qazanıblar.

Bu dünya çempionatında gənc qızlarımızda uğurla çıxış ediblər. Onlar bir qızıl və iki bürünc medal qazanmaqla Azərbaycan güləşində yeni tarix yazıblar.

# Üç qızıl medal

*Ukraynanın Lvov şəhərində velosiped idmanının trek növü üzrə «Galichyna-2014» Qran-prisinə yekun vurulub. Beynəlxalq Velosipedçilər İttifaqının 2-ci dərəcəli yarışında Azərbaycan yığma komandasının 2 üzvü - Sergey Omelçenko və Yelena Pavluxina da mübarizə aparıb.*

Dörd gün davam edən yarışda idmançılarımız 3 qızıl və 1 bürünc medal qazanıblar. İlk gündə qadınlar arasında 10 km məsafəyə skretç yarışında bürünc medal əldə edən Yelena Pavluxina növbəti gün xal-la qrup ötüşməsində hamını qabaqlayıb və fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. O, altı mərhələdən ibarət omnium yarışlarında isə 5-ci yeri tutub.

Sergey Omelçenko 200 metr məsafəyə sprint yarışlarında və keyrin növündə bütün rəqiblərindən daha yaxşı çıxış edib və komandamıza 2 qızıl medal qazandırıb.

# Velosiped idmanı üzrə Azərbaycan çempionatı

*Xızıda keçirilən yarış cüt və qrup ötüşmələri əhatə edir. Velosiped idmanının şose növü üzrə keçirilən yarışda Azərbaycan Velosiped İdmanı Federasiyasının nəzdində fəaliyyət göstərən klub və cəmiyyətlərin müxtəlif yaş qrupları üzrə 70-dən artıq idmançısı mübarizə aparır.*

Ölkə çempionatının iştirakçıları arasında Azərbaycanın ilk peşəkar kontinental velosiped komandası «Synergy Baku»nun 4 üzvü - Aqşin İsmayılov, Samir Cəbrayılov, Məhəmməd Ələkbərov və Maksim Averin də iştirak edir. Azərbaycan velosiped məktəbinin layiqli yetirməsi, 1978-ci ildə dünya veloyürüşünün qalibi, altıqat SSRİ çempionu Aleksandr Averinin oğlu Maksim Averin bu ildən etibarən Azərbaycan yığma komandasının şərəfini qoruyur. O, debüt etdiyi yarışda çempionluq sevinci yaşayıb.

Respublika Olimpiya Ehtiyatları İxtisaslaşdırılmış Uşaq-Gənclər Velosiped İdmanı Məktəbinin təmsilçisi Elvin Nağıyev ilə tandem təşkil edən Maksim Averin elit və U-23 yaş qrupunda 40 kilometr məsafəni hamıdan tez başa vurmaqla ən yüksək göstəriciyə nail olub - 1 saat 24 saniyə. İkinci yeri tutan Samir Cəbrayılov - Məhəmməd Ələkbərov dueti çempion cütlükdən 1 dəqiqə 4 saniyə geri qalıb.




mozaika

faydalı

# Oksigen buraxan süni yarpaq



Kral İncəsənət Kollecinin (Böyük Britaniya) tələbəsi Yulian Melkiorri karbon qazını və suyu udaraq oksigen buraxa bilən süni yarpaq yaradıb.

Bu süni yarpaq bitkilərin yarpaqlarından ayrılmış və ipək fibrionu substansiyasına yerləşdirilmiş xloroplastların (tələbənin birbaşa ipək liflərindən ayırdığı beta-strukturlu fibrilyar zülalların) suspenziyasıdır. İpək fibrionu xloroplastlar üçün zəruri qaz mübadiləsini və az miqdarda suyun daxil olmasını təmin edir.

Bitki xloroplastları müəyyən dərəcədə müstəqil strukturlardır. Onlar hətta süni mühitdə də fəaliyyət göstərə bilir.

Yulian Melkiorri öz icadından uzunmüddətli kosmik uçuşlar zamanı, eləcə də evlərin ventilyasiya sistemlərində və bilavasitə yaşayış binalarında oksigeni artırmaq üçün istifadə olunmasını təklif edir.

Bundan əlavə, süni yarpaqlardan şəhərlərdə tikililərin yaşıllaşdırılması məqsədilə istifadə edilə bilər. Bu, şəhərlərin ekologiyasına müsbət təsir göstərər.

maraqlı

# Mobil telefonların maraqlı funksiyaları




***Çox vaxt əksəriyyətimiz bundan xəbərsiz oluruq. Məsələn, qeyri-adi vəziyyətlər üçün funksiyalara baxaq.***

Fövqəladə hal baş verdikdə mobil telefondan 112 xidmətinə zəng bütün dünyada var. Sizin istifadəçisi olduğunuz şəbəkənin əhatə dairəsində belə halla qarşılaşdıqda 112 nömrəsini yığırsınız və telefon yerləşdiyiniz bölgənin şəbəkəsindən qəza xidmətinin nömrəsini özü tapacaq. Maraqlı məqam budur ki, belə hal olduqda telefon qəza xidmətinin nömrəsini hətta klaviatura blokda olduğu təqdirdə də yığacaq.

Avtomobilin açarı içəridə qalıb, qapı bağlandıqda mobil telefon köməyinizə gələ bilər. Evdə ehtiyat açar varsa, evdəkilərin birinin telefonuna zəng edirsiniz. Öz mobil telefonunuzu bağlı qapıdan 30 sm məsafədə tutursunuz. Evdəki adam maşının açarını öz telefonuna yaxın tutur və açarın düyməsini basır. Qapı açılacaq.

Öz mobil telefonunuzun seriya nömrəsini bilmək üçün *#06# kombinasiyasını yığın. Ekranda 15 rəqəmdən ibarət kod görünəcək. Onu yazın və etibarlı yerdə qoruyun. Telefonunuz oğurlansa, mobil operatora zəng edin və kodu söyləyin. Operator sizin telefonunuzu bloka salacaq. O halda hətta sim kart dəyişsə belə, telefondan istifadə etmək mümkün olmayacaq. Bəlkə telefonu geri qaytara bilməyəcəksiniz, amma hər halda biləcəksiniz ki, telefonunuzu oğurlayan adam ondan istifadə edə bilməyəcək.

sağlam həyat tərzi

# Gündə 7 dəqiqə yüngül qaçmaq ürək-damar xəstəliklərindən ölüm riskini 45% azaldır

Fiziki hərəkətlərin faydalı təsiri bu hərəkətlərin intensivliyindən və müddətindən o qədər də asılı deyildir. Gündə cəmi 7 dəqiqə yüngül qaçışla məşğul olmaq bütövlükdə xəstəliklər üzündən vaxtsız ölüm riskini 30, ürək-damar xəstəliklərindən ölüm riskini isə 45 faiz azaldır.

Ayova Universitetinin tədqiqatçı-alimləri 18-100 yaşlarında 55 mindən çox Amerika sakininin həyatını 15 il müşahidə və təhlil edərək bu nəticəyə gəliblər. Eksperiment müddətində həmin adamların 3 mindən çoxu dünyasını dəyişib. Onlardan 217 nəfərinin ölümünə səbəb ürək xəstəliyi olub. Tədqiqat iştirakçılarının orta hesabla hər 4 nəfərindən biri qaçışla məşğul olurdu. Məlum olub ki, qaçışla məşğul olanlar bunu etməyənlərlə müqayisədə 3 il çox yaşayıblar.

Tədqiqatın nəticəsinin psixoloji əhəmiyyəti də az deyil, çünki qaçmaq istəyən, lakin bunu etməyənlərin çoxu vaxt amilini əsas göstərir: onlar qaçışa çox vaxt sərf etmək istəmir və ya buna imkanları olmadığını söyləyirlər.

Məlum olub ki, həftədə təxminən 50 dəqiqə asta yerişlə qaçan insanların qaçışdan əldə etdiyi effekt daha sürətli və daha uzun müddət qaçan insanların əldə etdiyi effektlə təxminən eynidir.

Bu o deməkdir ki, həftədə təxminən 50 dəqiqə (gündə heç olmasa 7 dəqiqə) asta yerişlə qaçmaq məsləhətdir.



# Acı bibər xərçəngə qarşı güclü vasitədir

*«Medical News Today» nəşrinin yazdığına görə, çili bibərinin acı inqrediyenti olan kapsaitsin kolorektal xərçəng riskini azalda bilər. Kaliforniya Universitetindən doktor Eyal Raz müəyyən edib ki, birləşmə siçanlarda TRPV1 ağrı reseptorunu fəallaşdırır. Nəticədə həzm yolunda şişlərin inkişafının qarşısı alınır.*



«Meddaily» xəbər verir ki, TRPV1 reseptoru ilk dəfə sensor neyronlarında aşkar olunub. O, hüceyrələri ətraf mühitdən daxil olan istiliklə bağlı zədələrdən, yüksək turşuluqdan və kimyəvi birləşmələrdən qoruyur. Məlum olub ki, reseptor epidermal artım faktorunu stimullaşdıran zaman bağırsağın epitelial hüceyrələri də TRPV1-ə təsir göstərir. TRPV1 bağırsaqda hüceyrələrin inkişafı üçün mühüm reseptordur.

Reseptorun siqnal fəallığı pozulanda hüceyrənin inkişafı nəzarətdən çıxır. Bu isə xərçəng riskini artırır. Lakin reseptorun təsiri şişlərin əmələ gəlməsi riskini azaltmağa imkan verir.

TRPV1 reseptoru çatışmayan siçanlarda şişlər əmələ gəlməyə başlayır. TRPV1 reseptorunu fəallaşdıran kapsaitsin xərçəngin qabağını alaraq, siçanların ömür müddətini 30 faizə qədər artırıb. İltihab əleyhinə selekoksib preparatının tətbiqi bu üsulu səmərəli edib.

Müdriklər deyib ki...

**Qələbə - «qələbə mənimdir» deyə bilənlərindir.**

**Mustafa Kamal Atatürk (1881-1938)**

